*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

22 noyabr 2025-ci il №44 (9150) www.muallim.edu.az muallim@media.edu.az

# STEAM TƏHSİLİ 5 İLDƏ BÖYÜK İNKİŞAF YOLU KEÇİB




**Emin ƏMRULLAYEV:**

**“Azərbaycanda STEAM təhsilinin 5 il ərzində böyük inkişaf yolu keçməsi, minlərlə şagirdin bu prosesə qoşulması və innovativ düşüncənin təhsil sistemində genişlənməsi festivalın əhəmiyyətini daha da artırır.**

**Yeni məktəblərdə də STEAM laboratoriyaları fəaliyyət göstərir və bu proses hər il tədricən genişlənir. 2027-2030-cu illərdə STEAM təhsili Azərbaycan təhsilinin əsas aparıcı məzmununa çevriləcək.**

**Növbəti tədris ilindən başlayaraq Qarabağ Universitetində həm ayrı-ayrı fənlər üzrə müəllim hazırlığına, həm də STEAM təhsilinin ayrıca bir metodologiya və ixtisas kimi tədrisinə başlanacaq. İnanıram ki, bu, bölgə üçün də böyük bir yenilik olacaq və təhsilin mərkəzləşmədən yalnız Bakıda deyil, regionlarda da inkişafına ciddi töhfə verəcək”.**

# SAF 2025-in qalibləri mükafatlandırılıblar








## Qalib şagirdlərin təəssüratları

**“Layihəmizin dünyada bənzəri yoxdur. Biznes planı da beynəlxalq normativlərə uyğun hazırlamışıq”**

**“Mən proqramlaşdırdım, Ayan isə dizayn verdi. Həm işimizi, həm də vaxtımızı düzgün bölür, səmərəli işləyirik”**

**“Mərkəzdə biz Ayla ilə kiçik robotlar düzəldirdik. Bu yarışa isə müəllimlərimizlə birlikdə araşdıraraq bir qərara gəldik”**

Bax səh. 3

## ZƏNGİLAN ŞƏHƏRİNDƏ ƏLAQƏLƏNDİRMƏ QƏRARGAHININ 5 İLLİK FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ İCLAS KEÇİRİLİB



Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir... Həyata keçirilən genişmiqyaslı layihələr regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

Bax səh. 2

## “ZƏFƏRİMİZDƏ AZƏRBAYCAN MÜƏLLİMİNİN ROLU BÖYÜKDÜR”



“Uşağın inkişafına iki mühit təsir edir: ev mühiti və məktəb mühiti. Ailədə ata və ananın həyat tərzi, davranışı ilə ciddi problem yaratdığı uşağın inkişafı ilə bağlı müəllim artıq heç nə edə bilmir, kifayət qədər çətinlik çəkir həmin uşaqla. Bu, böyük bir problemdir. 44 günlük Vətən müharibəsində əldə edilən Zəfərdə Azərbaycan təhsilinin, Azərbaycan müəlliminin də rolu böyükdür. Azərbaycan məktəbi həqiqətən də gənc nəsilə vətənpərvərlik, vətənə sevgi hissini aşılaya bilib. İnanıram ki, bundan sonra da belə olacaq”.

## “ÖZ HƏYATINI FƏDAKARCASINA MƏKTƏBƏ VƏ ŞAGİRDLƏRƏ HƏSR ETMİŞ MÜƏLLİMLƏRİMİZ VAR”



“Biz demirik ki, müəllim sertifikatlaşdırma prosesində mütləq 60 bal yığsın, 60 bal yığmasa müəllim deyil. Hər bir insan imtahanda 5-10 bal səhv edə bilər. Məktəb müəlliminə olan gözlənti onun öz fənnindən həmişə 100 faiz nəticə göstərməsi deyil. Əsas gözlənti müəllimin şagirdə olan münasibətidir. Bizim həqiqətən də uşaqları sevən, məktəbi sevən müəllimlərimiz var. Biz bu müəllimləri tapıb onları məktəbə qaytarmaq istəyirik”.

Bax səh. 4

# “Azərbaycan dilini öyrənirik”

## Leyla Əliyeva kitabın təqdimat mərasimində iştirak edib







Noyabrın 18-də “LIBRAFF” kitab mağazaları şəbəkəsinin “Park Akademiya” filialında Səbinə Əliyeva, Hüzurə Ağayeva və Gülarə Əmirovanın həmmüəllifi olduqları “Azərbaycan dilini öyrənirik” kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Təqdimat mərasimində çıxış edən kitabın həmmüəllifi Səbinə Əliyeva kitabın 4-6 yaşlı uşaqlar üçün nəzərdə tutulduğunu, ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində yetişən uşaqlara, o cümlədən Azərbaycandan kənarda yaşayan balaca həmyerlilərimizə ana dilini öyrətmək, dilimizə qarşı sevgi oyatmaq, öz dilimizdə ünsiyyət qurmaq bacarıqlarını uşaq yaşlarından formalaşdırmaq məqsədi daşıdığını deyib: “Bu kitabı hazırlamaqda əsas hədəflərdən biri Azərbaycan dilini öyrətməklə yanaşı, ölkəmizin milli dəyərlərinə, mədəniyyətinə bağlılıq yaratmaqdır. Kitab ümumilikdə 8 bölmədən ibarətdir və müxtəlif mövzulara həsr olunub. Kitabın ən maraqlı xüsusiyyətlərindən biri şəkillər əsasında hazırlanmasıdır. Həmin yaş qrupunda olan uşaqlarda oxu-yazı bacarığı hələ formalaşmır. Ona görə də balacaların qavrama xüsusiyyətləri nəzərə alınaraq mövzular şəkillərlə izah olunub. Bir yandan da şəkillərlə öyrənmə prosesi daha əyləncəli və yaddaqalan edir. Ən maraqlı cəhətlərdən biri “dinləyək və öyrənək” rubrikasıdır. Burada Azərbaycan şairlərinin şeirləri audioformat şəklində, yəni QR kod vasitəsilə səsli versiyada oxutdurulur. Bununla yanaşı, kitaba uşaqların erkən yaşda ilkin ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün ən zəruri olan ifadələr, sözlər, cümlələr daxil edilib ki, burada da məqsəd öyrənmə prosesini daha sistemli şəkildə həyata keçirməkdir. Məlum olduğu kimi, həmin yaş qrupundan olan uşaqlara yazılı söz və ifadələr, həmçinin şeirlər müəllimlər və valideynlər tərəfindən səsləndirilir və öyrədilir. Kitabda bir növ müəllim və valideynlərə istiqamət verilir”.

Kitabın redaktoru professor Sevinc Əliyeva üçillik zəhmətin bəhrəsi olan həmin kitabın dilimizə sevgi, dəyərlərimizə bağlılığın ifadəsi olduğunu bildirib. O, nəşrin xaricdə yaşayan və böyüyən azərbaycanlı uşaqların da sevimli kitabına çevriləcəyinə inamını ifadə edib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova, yazıçı, şair, pedaqoq, professor Zahid Xəlil, Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Göyərçin” jurnalının baş redaktoru, professor Rafiq Yusifoğlu, Abdulla Şaiqin nəvəsi və ev-muzeyinin direktoru Ülkər Talıbzadə çıxış edərək Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı nitqindən fikirləri xatırladıblar. Bildirilib ki, ölkə başçısının vurğuladığı kimi, Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Çıxış edənlər Azərbaycan dilinə dövlət səviyyəsində qayğı göstərildiyini qeyd edib, bu istiqamətdə atılan addımlardan bəhs ediblər.

Natiqlər “Azərbaycan dilini öyrənirik” kitabını tədris vasitəsi kimi yüksək qiymətləndirib, uşaqların doğma dilimizdə düşünüb-danışmağı sadə və anlaşılan şəkildə öyrənməsi üçün faydalı olacağına və bu cür layihələrin davamlı xarakter alacağına inamlarını ifadə ediblər.

Tədbir zamanı, həmçinin bədii hissə nümayiş etdirilib, kitaba daxil edilən şeirlərdən bir neçəsi QR kod vasitəsilə səsləndirilib.

# ZƏNGİLAN ŞƏHƏRİNDƏ ƏLAQƏLƏNDİRMƏ QƏRARGAHININ 5 İLLİK FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ İCLAS KEÇİRİLİB

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində Qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev dövlətimizin başçısının birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” Proqramının gerçəkləşdirildiyini bildirib. Onun sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir.

Qərargah rəhbəri deyib ki, həyata keçirilən genişmiqyaslı layihələr regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

Böyük Qayıdışın inteqrasiyalı yanaşma ilə təmin olunmasının real nəticələr verdiyi və artıq “İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı”nın, 8 şəhərin Baş planının, 3 şəhərin isə Müfəssəl planının təsdiqləndiyi, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin Baş planlarının işlənilmə mərhələsində olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, 3 beynəlxalq hava limanı istifadəyə verilib, tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı baş tutub. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub. Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb.

İşğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişində əsas rol oynayan Ağdam və Cəbrayıl rayonundakı “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları salınıb. Hər iki parkda 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat həcmində investisiya yatırılıb və 1057 yeni iş yeri yaradılıb. Parklarda fəaliyyətə başlamış rezidentlər tərəfindən 949,4 milyon manat məbləğində məhsul istehsal olunub. Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

Bütün bunlar bərpa və inkişaf proseslərinin praktiki nəticələrini göstərməklə yanaşı, dövlətimizin başçısının ərazilərin bərpasına yönələn siyasətinin ardıcıllığını və bu istiqamətə olan yüksək diqqətini əks etdirir. Görülən işlərin nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

Qərargah rəhbəri bölgənin münbit torpaq və əlverişli iqlim şəraiti ilə seçildiyini, bunun da ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün geniş imkanlar yaratdığını və bu istiqamətdə müvafiq işlərin aparıldığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələri üzrə həyata keçirilən işlər barədə məlumatlar təqdim edilib. Bundan əlavə, ərazilərdə tikinti layihələrinin hazırlanmasına, tikinti-quraşdırma işlərinin aparılmasına dövlət nəzarətinin həyata keçirilməsi, fövqəladə hallara qarşı dayanıqlılığın, əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabətqabiliyyətli aqrar istehsalın təşkili, mədəni, tarixi və dini abidələrin bərpası və qorunması istiqamətlərində görülən işlər barədə məruzələr dinlənilib.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin icrasından irəli gələrək zəruri tədbirlərin görülməsi iclas iştirakçılarının diqqətinə çatdırılıb və müvafiq tapşırıqlar verilib. Bildirilib ki, Böyük Qayıdışın uğurla davam etdirilməsi üçün koordinasiya, innovasiya və şəffaflıq prinsipləri daim ön planda saxlanılmalıdır.

Səfər çərçivəsində Zəngilan şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Zəngilan şəhər məscidinə, Zəngilan şəhər yaşayış kompleksinə və məktəb binasına baxış keçirilib. Bundan əlavə, Əlaqələndirmə Qərargahının üzvləri Zəngilan Hotel Kompleksində görülən işlərlə tanış olublar.

Daha sonra “Dost Agro Park”a aid əkin sahələrindəki dairəvi (pivot) suvarma sistemlərinə, həmin parkın heyvandarlıq kompleksinə, Ağalı kəndinin sakinləri üçün parselləşmə aparılmış kənd təsərrüfatı təyinatlı torpaq sahələrinə və “Şirin Aqro” QSC bağçılıq ərazisinə baxış keçirilib.

Qərargahın üzvləri, həmçinin Zəngəzur dəhlizində avtomobil yolunun və dəmir yolu xəttinin, eyni zamanda, Araz çayı üzərində tikilən Ağbənd-Kəlalə körpüsünün inşası prosesi ilə tanış olublar. Onlara Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısı, Araz çayı üzərində inşa edilən körpüdə və Zəngəzur dəhlizinin tərkib hissəsi olan Horadiz-Ağbənd avtomobil və dəmir yollarının inşası, eləcə də müvafiq buraxılış məntəqəsinin tikintisi ilə bağlı planlaşdırılan işlər, o cümlədən gömrük nəzarətinin təşkilinə və infrastrukturun yaradılmasına dair mövcud vəziyyət barədə məlumatlar təqdim olunub.

# Hökumətlərarası Komissiyanın 4-cü iclası keçirilib

## Nazir müavini Həsən Həsənli iclasda çıxış edib





Noyabrın 20-də İsrail Respublikasının Qüds şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə İsrail Respublikası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 4-cü iclasında nazir müavini Həsən Həsənli iştirak edib.

İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə iclas iştirakçılarını məlumatlandırıb. Nazir müavini çıxışında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi, birgə təhsil layihələrinin dəstəklənməsi və ali təhsil müəssisələri arasında akademik əlaqələrin dərinləşdirilməsi istiqamətində görülən işlər barədə də məlumat verib.

Komissiyanın iclasında həmçinin iki ölkə arasında iqtisadi, ticarət, enerji, nəqliyyat, səhiyyə, turizm, eləcə də mədəniyyət sahələrində əməkdaşlığın mövcud vəziyyəti və potensial imkanları müzakirə olunub.

Yekunda Azərbaycan Respublikası ilə İsrail Respublikası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 4-cü iclasının yekunlarına dair Protokol imzalanıb.

Həmçinin, səfər çərçivəsində nazir müavini Həsən Həsənli Qüds Yəhudi Universitetini ziyarət edib və universitet nümayəndələri ilə görüş keçirib.

# STEAM TƏHSİLİ 5 İLDƏ BÖYÜK İNKİŞAF YOLU KEÇİB

## SAF 2025-in qalibləri mükafatlandırılıblar





Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə 17-19 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF 2025) keçirilib. Açılış mərasimində dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, rektorlar, ETN-in elmi-tədqiqat institutlarının direktorları, beynəlxalq təşkilatların təmsilçiləri, media qurumlarının rəhbərləri, təhsil mütəxəssisləri, tanınmış ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Dövlət Himni səsləndirilib.

Daha sonra SAF festivalının 5 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov layihənin fəaliyyətinə dair statistik göstəriciləri diqqətə çatdırıb. Bildirilib ki, "STEAM Azərbaycan" layihəsi 300 mindən çox şagird və 400-dən çox məktəbi əhatə edir. Hazırda STEAM dərsləri III—IX siniflərdə tədris olunur. Ölkə üzrə 21 STEAM Mərkəzi fəaliyyət göstərir.

İqrar Nəzərov qeyd edib ki, bu festival yalnız müsabiqə deyil, həm də ölkəmizin gənclərinə qlobal bilik mübadiləsində iştirak imkanı yaradan beynəlxalq platformadır.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, Azərbaycanda STEAM təhsilinin 5 il ərzində böyük inkişaf yolu keçməsi, minlərlə şagirdin bu prosesə qoşulması və innovativ düşüncənin təhsil sistemində genişlənməsi festivalın əhəmiyyətini daha da artırır.

STEAM təhsilinin əsas komponentlərinə toxunan Emin Əmrullayev qeyd edib ki, artıq ilk illərlə müqayisədə 50 dəfədən çox tədris resursu, metodologiya və sistem modeli tətbiq olunur. Nazir 2027—2030-cu illərdə STEAM-ın Azərbaycan təhsilinin əsas aparıcı məzmununa çevriləcəyini vurğulayıb.

Çıxışlardan sonra festivalın final mərhələsində yarışacaq komandaların təqdimatı və bədii hissə baş tutub.

Festival çərçivəsində 18 yarış kateqoriyası üzrə 20-dən artıq ölkədən minlərlə şagird, tələbə, mentor və ekspert iştirak edib. Yarış kateqoriyaları robototexnika, süni intellekt, bərpaolunan enerji, dron və peyk texnologiyaları, incəsənət, innovativ layihələr və mühəndislik sahələrini əhatə edib.

Noyabrın 19-da Beynəlxalq STEAM Azərbaycan Festivalının (SAF 2025) bağlanış mərasimi keçirilib.

Bağlanış mərasimində açılış nitqi ilə çıxış edən "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov yarışların nəticələrinə dair hesabatı diqqətə çatdırıb.

Ardınca Beynəlxalq STEAM Azərbaycan Festivalı 2025-ə dair videoicmal nümayiş etdirilib.

Sonra hər kateqoriya üzrə keçirilən yarışlarda I yerin qalibləri mükafatlandırılıblar. Bildirilib ki, I yer tutan qalib komandalar Azərbaycan, Türkiyə, Pakistan, Qazaxıstan və Slovakiyanı təmsil edirlər.

Mükafatlandırma mərasimi bədii hissə ilə başa çatıb.

Qeyd edək ki, bu il artıq 5-ci dəfə təşkil olunan STEAM Azərbaycan Festivalı çərçivəsində final mərhələsinə vəsiqə qazanmış 1400-dən çox iştirakçı arasında 16 əsas və 2 alt kateqoriya üzrə yarışlar baş tutub. Festivalda Azərbaycanla birgə ümumilikdə 22 ölkə təmsil olunub.

Festivalın əsas məqsədi STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı gənclərin üzə çıxarılması, eləcə də innovativ layihə və həllərin hazırlanmasının dəstəklənməsidir.

Qeyd edək ki, STEAM — beş əsas sahənin birgə və inteqrasiya olunmuş şəkildə tədrisini əhatə edən modeldir. Bu yanaşma elm (Science), texnologiya (Technology), mühəndislik (Engineering), incəsənət (Art) və riyaziyyatın (Math) birgə öyrədilməsi ideyası üzərində qurulub.

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Beynəlxalq STEAM Azərbaycan Festivalını ziyarət edib






Noyabrın 19-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalını (SAF 2025) ziyarət ediblər.

Elm və təhsil naziri Emin Əmrullayev qonaqlara festivalın məqsədləri, proqramı və müxtəlif istiqamətlər üzrə təqdim olunan layihələr haqqında ətraflı məlumat verib.

Ziyarət zamanı qonaqlar stendlərə baxış keçirib, festival iştirakçıları ilə görüşərək gənc ixtiraçıların innovativ layihələri ilə tanış olublar.

Bundan əlavə, Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirakçılarla səmimi söhbət edib və onlarla xatirə şəkilləri çəkdiriblər.

**AZƏRTAC**




## Qurdular, yaratdılar, yarışdırıb əyləndilər, əyləncəli öyrəndilər

### SAF 2025-in finalından reportaj




STEAM Azərbaycan Festivalı yekunlaşdı. Həyəcanlı olduğu qədər maraqlı, əyləncəli, rəngli festivalın bağlanış mərasimində qaliblər mükafatlandırıldı.

SAF 2025-in qaliblərindən biri olan Zaqatala məktəblilərini fərqləndirən problem bir bağbanla tanışlıq zamanı ortaya çıxıb.

Aydın Sulxayev Zaqatala rayon Nizami Hüseynov adına 2 nömrəli tam orta məktəbin XI sinif şagirdidir. O, SAF 2025-ə yaşıdı Avropa Azərbaycan məktəbinin şagirdi Nihad Muradlı ilə qatılıb və uğur qazanıb. Komanda üzvləri biri-birini 5 ildir tanıyırlar və bu onların ilk birgə işi deyil. Aydın Zaqatalada, Murad isə Balakəndə oxuduğu vaxt Robototexnika kursunda tanış olublar.

Aydın 2022-ci ildən bəri SAF yarışlarına, Murad isə Zaqatalada dostlaşdığı ayrı-ayrı robot həvəskarları ilə komanda yaradıb müxtəlif yarışlara qatılır. Muradın dediyinə görə, dostların yaratdığı komandalar sınaqlardan uğurla çıxıblar. Məsələn, bir dəfə Dünya Robot Olimpiadasının 2022-ci ildə Azərbaycan turunun qaliblərindən olublar, 2023-cü ildə Azərbaycanda keçirilən Dünya Robot Olimpiadasının birincisi olublar. Sonra uğurlarını Panamada davam etdiriblər və 33 ölkə arasında keçirilən yarışda II yerə çıxıblar.

SAF-da hər dəfə "İnnovasiya və sahibkarlıq" kateqoriyasında yarışıblar: "Verilən mövzuya uyğun problem göstərib onun innovativ həllini verməliyik. Həmin həllin isə ya bənzəri olmamalı, ya da olan həldən üstün yeni yol təklif etməliyik".

Məktəblilər bu dəfə ziyanvericilərə qarşı ən yaxşı mübarizə yolu təklif ediblər və bu həll yolu müsbət nəticə verib. Hətta o qədər yüksək nəticə əldə ediblər ki, SAF-da stendlərinə qoymağa böcək hücumuna məruz qalan bir çiçək belə tapmayıblar.

Bakı və rayon məktəblilərinin təklif etdiyi həll yolu süni zəka əsaslıdır. Belə ki, yaratdıqları tətbiq sayəsində hazırladıqları robot istixanada, bağçada müşahidə aparır, xəstəliyi olan çiçəyi aşkarlayır və bu barədə məlumatı veb-sayta ötürür. Bu da bitkilərdə dəyişikliyi və xəstəliyi vaxtında aşkarlamağa imkan verir.

Onlar qalib olmalarının sirrini belə izah ediblər: "Dünyada 2 aktual mövzu var. Birincisi süni intelllekt və ondan düzgün istifadə, ikincisi isə aqrotexnikadır. Üstəlik, layihəmizin dünyada bənzəri yoxdur. Biznes planı da beynəlxalq normativlərə uyğun hazırlamışıq".

"Rolling minds" kateqoriyası üzrə yarışan və seçilərək mükafatlandırılan komandalardan biri Ağdaş məktəbliləri Şamil və Toğrulun yaratdığı komanda olub.

Şamil Atakişiyev və Toğrul Mikayılov V sinif şagirdləridirlər. M.Şeyxzadə adına internat tipli Texniki, Humanitar və Təbiət fənləri təmayüllü gimnaziyada təhsil alırlar. Bir məktəbdə oxusalar da, STEAM Mərkəzində tanış olub komanda yaradıblar: "Əslində, biz 3 dostuq. Müəllimimiz Günel Hacıyeva ilə hazırlaşdıq. Biz ikimiz bu kateqoriya, digər dostumuz isə başqa kateqoriya üzrə yarışa qatıldı".

Onlar birinciliklərinin səbəbini belə izah ediblər: "Ən uzun yol qət edən və kreativ həll olaraq ən çox bal yığan birinci oldu. Festivalın ikinci günündə yarışlarımızı bitirmişdik, üçüncü günündə də verilən əlavə daha bir tapşırığı da uğurla yerinə yetirdik. Tapşırıqda bizə bir labirint verirlər və biz onu bir neçə dəyişimdə həll edirik. 3 aydır bu kateqoriya üzrə hazırlaşırıq. 1 dəqiqə içərisində sürətlə düşünüb tapşırığı yerinə yetirdik".

İlk dəfə SAF 2023-ə qatılan uşaqlar Leqo üzrə bacarıqlarını yarışdırıblar və onda da birincilik qazanıblar.

Daha bir maraqlı kateqoriya üzrə – "Imagination to reality" kateqoriyası üzrə qaliblərlə tanış oluruq. Naxçıvandan qatılan 2 qalib komandada 6 şagird təmsil olunub.

Onlardan ikisi – Fuad Ramazanlı və Amil Xəlilzadə Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin IX sinif şagirləridirlər. Hazırladıqları gəmi və rezinli maşın modelləri barədə danışaraq deyiblər ki, onları məhz finala vəsiqə qazana bilmək üçün hazırlayıblar. Amma nəinki finala vəsiqə qazanıb, hətta qalib olublar. Qalib olacaqlarına inamlarını isə belə izah ediblər: "Dizaynını müxtəlif proqramlardan istifadə edərək hazırlamışıq, hardansa hazır model götürməmişik. Hazırladığımız rezinli maşın 15-16 metr gedə bilir. Ən böyük məsafə qət edən bizim maşınımız oldu".

"RoboGames kids" kateqoriyasında yarışaraq birinci olan 5 komandadan biri "Legomania" komandasıdır. Komanda üzvləri Ülvi Şabanov və Ayla Laçınzadə öz məharətlərini ən yaxşı şəkildə göstəriblər. Şıxəli Qurbanov adına 3 nömrəli tam orta məktəbin V sinif şagirdi olan Ümid Şabanov Zaqatala rayon Zərifə Əliyeva adına Texniki Təmayüllü liseyin III sinif şagirdi Ayla Laçınzadə ilə bilik və bacarıqlarını STEAM mərkəzində birləşdiriblər. Özləri kimi hazırladıqları robotlar da əlbir işləyir: "Mərkəzdə biz Ayla ilə kiçik robotlar düzəldirdik. Beləcə dostlaşdıq. Bu yarışa isə müəllimlərimizlə birlikdə araşdıraraq bir qərara gəldik. Su altında tullantıları toplayan robot hazırlamağı qərara aldıq".

Kəşfiyyatçı və tullantı yığan robotlar müştərək çalışır. "Pinqvin" adlandırdıqları kəşfiyyatçı tullantı aşkarlayan kimi zibilyığan robota məlumat verir, o da görülmüş zibili götürür. Hələlik quru platformada çalışır, uşaqlar onun təkərlərini və bəzi başqa hissələrini dəyişərək təkmilləşdirib su içində də işini təmin edə biləcəklərini düşünürlər".

İlk dəfə yarışa qatılan uşaqlar növbəti yarışlara daha təkmil işlərlə qatılacaqlar. Ümid deyir ki, gələcəkdə kompüter mütəxəssisi olub proqramlaşdırma ilə məşğul olacaq: "Qarşılaşdığım problemləri texnologiyanın köməyi ilə həll etmək istəyirəm".

Məhərrəm Aydınlı sinif yoldaşı Ayan Xəlilli ilə komanda yaradıb "CubeSat" kateqoriyasında yarışlara qatılıb. Minipeyk texnologiyaları ilə maraqlanan məktəblilər 6 metr məsafədə uçan aparatla əlaqə qurmağa nail olublar.

2 nəfərdən ibarət komandada vəzifələr dəqiq bölünüb. İdeyanı Məhərrəm proqramlaşdırır, Ayan dizayn edir: "Yay tətilində başladıq, 3 ay ərzində hazırladıq. Mən proqramlaşdırdım, Ayan isə dizayn verdi. Həm işimizi, həm də vaxtımızı düzgün bölür, səmərəli işləyirik".

Qax şəhər 2 nömrəli məktəb liseyin şagirdləri Qax şəhər STEAM Mərkəzinin yetirmələridirlər. Ayandan fərqli olaraq Məhərrəmin bu il SAF-da iştirakı ilk deyil: "İlk dəfə 2023-cü ildə iştirak etdim və fərqli kateqoriyada I yeri qazandım. "CubeSat" kateqoriyasında isə ikinci dəfə yarışır və qazanıram. Ötən il III yerə layiq görülmüşdüm, bu il birinci oldum".

Festivalın finalında əcnəbilər də var. Qaliblərdən biri Slovakiya məktəblilərinin "Strojar riders" komandasıdır. Onlar "H2 Pro Grand Prix Pro" kateqoriyası üzrə yarışırlar. 13-17 yaşlı şagirdlər üçün nəzərdə tutulan bu kateqoriya üzrə şagirdlər hidrogenlə işləyən avtomobillər layihələndirir, qurur və həmin maşınlarla yarışırlar.

Komandada 2 sürücü, 2 mexanik var. Yarışda onlar maşınları hərəkətə gətirir, amma özləri içərisində olmağı arzulamırlar. Ona görə yox ki, sürətlə gedən maşınların içərisində olmaqdan qorxurlar, ona görə ki, sürməyi yox, maşınları hərəkətə gətirməyi xoşlayırlar. Gələcəkdə mühəndis olmağı planlaşdırırlar.

XI sinif şagirdlərindən ibarət komanda SAF-da olmaqdan çox məmnundur. Bundan əvvəl başqa yarışlarda da iştirak ediblər. Amma ilk dəfə SAF 2025-də qalib olublar və bunun xoşbəxtliyini yaşayırlar.

**Ruhiyyə DAŞSALAHLI**

# “ZƏFƏRİMİZDƏ AZƏRBAYCAN MÜƏLLİMİNİN ROLU BÖYÜKDÜR”

## Elm və təhsil naziri Emin Əmrullayev İTV-nin “Diqqət mərkəzi” verilişində qonaq olub




**Elm və təhsil naziri Emin Əmrullayev İTV-nin “Diqqət mərkəzi” proqramında qonaq olub. Proqramda müəllimlərin əməkhaqqısına dair təklif olunan yeni mexanizm və ümumi təhsildə vacib məqamlarla bağlı müzakirə aparılıb.**

“Biz demirik ki, müəllim sertifikatlaşdırma prosesində mütləq 60 bal yığsın, 60 bal yığmasa müəllim deyil. Hər bir insan imtahanda 5-10 bal səhv edə bilər. Məktəb müəlliminə olan gözlənti onun öz fənnindən həmişə 100 faiz nəticə göstərməsi deyil. Əsas gözlənti müəllimin şagirdə olan münasibətidir. Bizim həqiqətən də uşaqları sevən, məktəbi sevən müəllimlərimiz var. Biz bu müəllimləri tapıb onları məktəbə qaytarmaq istəyirik”.

“2027-ci ildə sertifikatlaşdırma prosesində ikinci dəfə uğurla keçəcək olan müəllimlər üçün əməkhaqqı artımı ilə bağlı vahid əmsalın tətbiqini düşünürük. Bu rəqəmin şərti olaraq müəllim əməkhaqqısını əsaslı şəkildə artıracaq bir rəqəm kimi görürük. 2027-ci ildə sertifikatlaşdırmadan ikinci dəfə də uğurla keçən müəllimin əməkhaqqısı yenə 10 faiz artsa, onun həyatında nə isə dəyişməyəcək. Müəllimi ikinci dəfə imtahan edib yenə 10 faiz əlavə verməyin mənası yoxdu. Həyatında heç nə dəyişmir. Müəllim üçün də bir motivasiya olmalıdır ki sertifikatlaşdırma prosesinə həvəsli olsun. Bizə lazım olan yaxşı müəllimlərlə işləmək, onların rifah səviyyəsini qaldırmaqdır. Müəllimlərin əməkhaqqısı ilə bağlı təklif olunan yeni mexanizmin əsas məqsədlərindən biri də elə müəllim nüfuzunun artırılması, rifahının yüksəldilməsi, iş şəraitinin yaxşılaşdırılmasıdır”.

“Təklif olunan yeni model müəllimi məktəbə bağlamaqla Azərbaycan müəllimini gündüz burda, axşam orda işləmək məcburiyyətində qoymamalıdır, Azərbaycan müəllimini bir yerdə işləməyə sövq etməlidir. Dərsdən sonra şagirdlərinə repetitorluq edən müəllimlər var ki, bu da sistemlə bağlı problemdir. Bu işdə müəllimi günahlandırmaqla bir şey olmur. Çünki bu 10 illər ərzində formalaşmış bir məsələdir. Burda yalnız günahkar müəllimdir demək doğru deyil”.

“Uşağın inkişafına iki mühit təsir edir: ev mühiti və məktəb mühiti. Ailədə ata və ananın həyat tərzi, davranışı ilə ciddi problem yaratdığı uşağın inkişafı ilə bağlı müəllim artıq heç nə edə bilmir, kifayət qədər çətinlik çəkir həmin uşaqla. Bu, böyük bir problemdir. 44 günlük Vətən müharibəsində əldə edilən Zəfərdə Azərbaycan təhsilinin, Azərbaycan müəlliminin də rolu böyükdür. Azərbaycan məktəbi həqiqətən də gənc nəsilə vətənpərvərlik, vətənə sevgi hissini aşılaya bilib. İnanıram ki, bundan sonra da belə olacaq”.

“Müəllimin əməkhaqqısını sinfin sayı müəyyən edir. Sinfin sayı çoxaldıqca saatlar artır və müəllimin maaşı da artır. Mənə görə müəllim sinif sayının dəyişməsinə məsuliyyət daşıyan şəxs deyil. Məsələn, mən müəllim işləyirəm, mən nəyə görə sinif sayından, uşaq sayından asılı olmalıyam. Mən peşəkar müəlliməmsə, mənim əməkhaqqım olmalıdır və mən bu əməkhaqqı ilə işləməliyəm. Bu proses zamanında o qədər də tənzimlənməyib deyə problem olaraq qalıb. Bu problemi həll etməliyik. Son 5 ildə həyata keçirilən islahatların nəticəsində müəllimlərin orta aylıq əməkhaqqı 965 manata qalxıb. Bundan sonrakı məqsəd də müəllimin əməkhaqqısını artırıb onun rifah səviyyəsini yaxşılaşdırmaqdır. Mənə görə, müəllimin maaşı sinif sayından, uşaq sayından asılı olmamalıdır.

**“Öz həyatını fədakarcasına məktəbə və şagirdlərə həsr etmiş müəllimlərimiz var”**

**“Biz müəllimin rifahını yaxşılaşdırmaqla həyatlarının müsbətə dəyişməsinə çalışırıq”**

**“Günahkar yalnız müəllimdir demək doğru deyil”**

**“Zəfərimizdə Azərbaycan müəlliminin rolu böyükdür”**

**“Mənə görə, müəllimin maaşı sinif sayından, uşaq sayından asılı olmamalıdır”**

# Elm və təhsil naziri Birləşmiş Ərəb Əmirliklərinin və Sudan Respublikasının ölkəmizdəki səfirləri ilə görüşüb





## Elm və təhsil sahəsində əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib

Noyabrın 19-da elm və təhsil naziri Emin Əmrullayev Birləşmiş Ərəb Əmirliklərinin və Sudan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirləri Məhəmməd Əl Bluşi və Anas Eltayeb Elgailani Mustafa ilə görüşüb.

Görüş çərçivəsində Birləşmiş Ərəb Əmirlikləri və Sudan Respublikası ilə elm və təhsil sahəsində əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.



# Azərbaycanda psixoloji reabilitasiya sahəsində təhsilə dəstək

bp daha bir beynəlxalq elmi vəsaitin Azərbaycan dilinə tərcüməsini təqdim edib.

Noyabrın 17-də keçirilən təqdimat mərasimində elm və təhsil nazirinin müavini Kənan Kərimzadə iştirak edib.

Tədbir iştirakçılarına məlumat verilib ki, yeni tərcümə olunmuş “PTSP hallarında koqnitiv işlənmə terapiyası: müfəssəl vəsait” kitabı posttravmatik stres pozuntusu (PTSP) halları zamanı koqnitiv işlənmə terapiyası (KİT) sahəsində çalışan mütəxəssislər üçün nəzərdə tutulub.

Təqdimat mərasimində çıxış edən bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəylinin sözlərinə görə, bu kitab müharibə stresi və digər stres travmalarından əziyyət çəkən insanların reabilitasiyası üçün çox vacib mənbədir. Qeyd edib ki, kitabın nəşrinə dəstək verməkdə məqsəd Azərbaycan psixoloji reabilitasiyanın, o cümlədən emosional və psixoloji travma yaşamış insanların əqli sağlamlığının reabilitasiyasının sürətləndirilməsinə kömək etməkdir. Bu nəşr stres travması yaşayan insanlarla işləyən mütəxəssislərin bilik və bacarıqlarının daha da artırılmasına, eləcə də PTSP-u olan şəxslər və onların ailə üzvlərinin bu sahədə maariflənməsinə də kömək edəcək.

Kitab təhsil müəssisələrinə, psixologiya fakültələrinə və stres travması reabilitasiyası ilə məşğul olan tibb müəssisələrinə bp-nin hədiyyəsidir.

Əlavə edilib ki, bu kitabın tərcüməsi və nəşri təşəbbüsü beynəlxalq xeyriyyə təşkilatı olan “For Azerbaijan” tərəfindən həyata keçirilən və həssas qruplar üçün dayanıqlı həllər təmin etmək məqsədi daşıyan “Azərbaycanda Psixoloji Reabilitasiya Potensialının Gücləndirilməsi” adlı geniş əhatəli layihənin bir hissəsidir.

Qeyd edək ki, bu layihə bp-nin yerli universitetlərə dünyada tanınmış qabaqcıl akademik materiallara, bilik və təcrübələrə çıxış imkanı təmin etməklə tədris və təlim prosesinin gücləndirilməsinə dəstək olmaq üçün həyata keçirdiyi geniş təhsil proqramının bir hissəsidir və beynəlxalq şirkətin ölkədə təhsilin inkişafına dəstək olmaq istiqamətində uzunmüddətli öhdəliyi çərçivəsində növbəti əhəmiyyətli addımdır.

Bununla da bp-nin dünyanın ən qabaqcıl akademik resurslarının Azərbaycana gətirilməsi məqsədilə nəşr etdiyi kitabların sayı 30-a çatıb.

# "AZƏRBAYCAN DİLİNİN SAFLIĞININ QORUNMASI HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞININ İŞİ OLMALIDIR"

**"Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm".**

*Prezident İlham Əliyevin noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyindəki çıxışından*



**2025**-ci il noyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley mərasimi həm də onunla yadda qaldı ki, tədbirdə dövlətimizin başçısı İlham Əliyev iştirak etdi, Azərbaycan elm və təhsilinin qarşısında dayanan təxirəsalınmaz vəzifələrdən danışmaqla bərabər, elm adamlarına zamanın yeni tələblərindən doğan ismarıclarını çatdırdı. Yubiley mərasimində çıxış edən ölkə Prezidenti AMEA-nın keçdiyi şərəfli yolda qazandığı uğurlardan danışmaqla yanaşı, buraxılmış şanslardan söhbət açdı, qurumun ölkəmizin elmi inkişafında oynadığı aparıcı rola, hər bir elmi-tədqiqatın maddiləşən nəticəyə hesablanmasının zəruriliyinə toxundu. Çıxışını 1945-ci ildə təşkil edilən Azərbaycan Milli Elmlər Akademiyasının ötən 80 ildə keçdiyi yol, Azərbaycanda elmin inkişafında oynadığı aparıcı rol mövzusu üzərində quran Prezident müxtəlif ictimai-siyasi quruluşların diqtə etdiyi şəraitdə Azərbaycanda hər zaman elm və təhsilin inkişafına böyük diqqət yetirildiyini xatırlatdı: "Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu Öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər".

## Varlığımızın ən mühüm atributu

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra 1993-cü ildə ziyalılar, ümumiyyətlə, ictimaiyyət nümayəndələri ilə ilk görüşünün məhz Milli Elmlər Akademiyasında baş tutduğunu qeyd edən Prezident İlham Əliyev ölkədə böyük iqtisadi, maliyyə çətinliklərinə baxmayaraq Akademiyanın işinə, qorunmasına göstərilən diqqəti, alimlərin fəaliyyəti üçün vəsait ayrılmasını xatırlatdı.

Bununla bərabər, ölkə başçısı "hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir"- sözləri ilə dövlət və cəmiyyətin qarşısında dayanan strateji vəzifələrdən söz açdı: "Təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər".

Texnoloji inkişafın ayrılmaz hissəsi olan süni intellektin iqtisadiyyatda, texnologiyada tətbiqinin qaçılmaz reallığa çevrildiyini qeyd edən dövlət başçısı Azərbaycan alimlərinin bu prosesdə fəal iştirakının gözlənildiyini vurğuladı: "Elm iqtisadiyyat, sənaye ilə sıx bağlı olmalıdır. Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər".

Azərbaycan elminin praktik nəticələrinə ümid etdiyini bildirən Prezident Azərbaycanın zəngin tarixinin Ermənistan dövləti, erməni diaspor təşkilatları tərəfindən uzun illər ərzində təhrif olunduğunu və bu istiqamətdə fəaliyyətin bu gün də davam etdiyini qabardaraq tarixçilərimiz qarşısında dayanan vəzifələrdən danışmağı sülh müqaviləsinin imzalanması ilə 250 illik münaqişənin bitdiyini düşünənlərə cavab sayıla bilər. Biz geopolitikanın sərt reallıqları ilə yaşayırıq və bu reallıqlar diqtə edir ki, əsrlərlə sahibi olduğumuz torpaqların fundamental tarixi yazılsın. O tarixi yazmağı şərtləndirən amilləri İlham Əliyev belə təqdim edir: "Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır, Ermənistanda da yaşayıb, əminəm ki, yenə də yaşayacaq. ... Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var".

Şübhə doğurmayan həqiqətlərdəndir ki, yaşadığımız regionda erməni "tarixçilərinin" fəallığının birinci mərhələsi 1828-ci il fevral ayının 28-dən, növbəti Rusiya-İran müharibəsinin nəticəsi olaraq Qərbi Azərbaycan ərazisinin əhəmiyyətli hissəsinin Rusiya imperiyasının tərkibinə qatılmasından sonra müşahidə olunub. İmperatorun cəmi bir ay sonra ilhaq edilmiş ərazilərdə "Erməni vilayəti"nin yaradılması haqqında imzaladığı fərmanla, əslində, Güney Qafqazın yenidən formalaşdırılacaq konfiqurasiyasının ilkin cizgiləri cızılırdı. İmperiyanın regionda uzun müddətə hesablanan strategiyasında Türkiyə və İrandan bu yerlərə köçürülən erməni millətindən olan təbəələri üçün xüsusi imtiyazlar nəzərdə tutulurdu. Bu fonda atılan addımlar ancaq "Erməni vilayəti"nin yaradılması ilə məhdudlaşmırdı və ilk növbədə regionun "köklü sakinlərinin" Güney Qafqazda uzunmüddətli dövrü əhatə edəcək tarixi hazırlanmalı idi.



Məhz Rusiya imperiyasının cənub sərhədlərində forpostuna çevrilməli olan xristian ermənilərinin regionda ən çirkin siyasətlərdə iştirakı üçün əsaslar yaradılırdı. O əsasların nəticəsi olaraq XIX əsrin ortalarında nəinki keçmiş İrəvan xanlığının inzibati ərazisində, həmçinin keçmiş Naxçıvan və Qarabağ xanlıqlarına aid yaşayış yerlərində də qonşu ölkələrdən cəlbedici imtiyazlar vəd olunaraq gətirilib yerləşdirilən ermənilərin sayı xeyli artmışdı. Bu amil və erməni millətindən olan şəxslərə xüsusi münasibətin nəticəsi imkan verirdi ki, nəinki erməni millətindən olan əhali arasından seçilən şəxslər yerli hakimiyyət orqanlarında müqayisəyəgəlməz şəkildə təmsil olunur, həmçinin paytaxtda imperatorun sarayına qədər gedib çıxa bilirdilər.

AMEA-nın yaradılmasının 80 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti, azından, 200 illik siyasətə ciddi elmi əsaslarla qarşılıq vermək üçün tarixçilərimizə çağırış edirdi.

Bu fikirləri səsləndirərkən beynəlxalq miqyasda görkəmli dövlət və siyasət xadimi olaraq tanınan və qəbul edilən Ümummilli Lider Heydər Əliyevin ailəsində dünyaya gələn, milli siyasətin gələcəyə hesablanan strategiyasının fəlsəfəsinə dərindən bələd olan İlham Əliyevin xalqımızın 35 il ərzində yaşadığı ağır faciələrin həm də "unutqanlıq" mərkəzindən qidalandığını xatırladır. Təcrübə dəfələrlə sübut edib ki, o unutqanlığı hər vaxt çiynimizin üstündə asılan Damokl qılıncı olaraq təhtəlşüurumuzda yer tutmasa, oxşar faciələrdən qaçmaq mümkün deyil. Getdikcə qəddarlaşan dünyanın fonunda aşınan bəşəri normalar bir də onu diqtə edir ki, "Günəş altında yer axtaranlar" bütün zamanlarda marığa yatmış vəhşilər kimi niyyətlərini gerçəkləşdirmək fürstəti gözləyirlər. Dünya hər il beynəlxalq hüquq normalarının az qala, kağız parçasına çevrilməsinin şahidi olur. Bu baxımdan dövlət rəhbərimizin tarixçilərimizə müraciəti başadüşüləndir. Bu yönümdən cənab Prezidentimizin tarixçilərlə bərabər, dilçilər, ümumiyyətlə, Azərbaycan dilini tədqiqat predmeti olaraq qəbul edən alim və tədqiqatçılara, onunla gündəlik işləyən digər peşə sahiblərinə - ədəbiyyat nümunələri yaradan yazıçı və şairlərə, həmçinin jurnalistlərə səslənməsi o insanlarda yaradıcılıqla bərabər, vətəndaş qeyrəti görmək hissindən irəli gəlir. Ölkə başçısı ən vacib saydığı məsələ barədə AMEA-nın yubiley tədbirində niyə mövzuya qayıtdığını belə izah edirdi: "On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti".

Bu, ölkə rəhbərinin ancaq 50 milyondan artıq insanın danışdığı ana dili yox, Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin təkcə qorunması deyil, inkişafı üçün hər birimizin borcunu yada saldı. Dil sadəcə ünsiyyət vasitəsi və ya məlumatın qeyd edilməsi və ötürülməsi deyil. Dil bir xalqın tarixi və mədəniyyəti ilə sıx bağlıdır. Dil xalqın mentalitetinin və kimliyinin əksidir və eyni zamanda, xalqın linqvistik təfəkkürü onun davranışını, əsas mədəni və ideoloji münasibətlərini müəyyən edir. Dilimiz vasitəsilə dünyanı dərk edir, öyrənir, öyrədir, həmçinin onun dünənlə bu gün və sabahla üzvi birliyi nəticəsində nəsillər arasında qırılmaz əlaqəni təmin etmiş oluruq.

Dünyada hələ də müxtəlif xalqlar arasında istifadədə olan 7000-dən çox dil var və həmin dildə danışan hər kəs inkişafın başlıca mənbələrindən hesab olunan dilin əsas funksiyasının ünsiyyət və informasiya mübadiləsi, informasiya yığımı, emalı, qorunması və həmin biliklərin nəsildən-nəslə ötürülməsi funksiyalarını əhatə etdiyini bilir. Dil həmçinin düşüncənin formalaşması, sosial identifikasiya və emosional funksiya kimi digər vacib funksiyaları da yerinə yetirir. Bütün bu amillər Azərbaycan Respublikasının dövlət dilinin ancaq ünsiyyət vasitəsi yox, özündə xalqımızın min illər ərzində yaratdığı mənəvi sərvətlərimizin xəzinəsi olduğunu şərtləndirir. Ona görə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunun yüksəlişi tarixi kimi yaddaşlarda həkk olunub. O yaddaşda Prezident Heydər Əliyevin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun yetkin konsepsiyası, uzunmüddətli strategiyasını ehtiva edən tarixi qanunvericilik aktları olaraq qəbul edilir.

Bunlardan əlavə, onu qeyd etmək zəruridir ki, kifayət qədər geniş dövrü, 1969-2003-cü illəri əhatə edən həmin zamanlarda dilimizin inkişafı təkcə rəsmi sənədlərdə deyil, gündəlik sosial-siyasi həyatımızda öz layiqli yerini tutmaqla beynəlxalq müstəviyə keçməsi, dünyanın nüfuzlu platformalarında eşidilməsi Ümummilli Liderimizin ana dilinin inkişafına göstərdiyi qayğının, uzaqgörən dil siyasətinin real nəticəsi kimi qəbul edilirdi. Bu, Ümummilli Liderimizin hələ ötən əsrin 70-ci illərindən yürütdüyü azərbaycançılıq ideologiyasının özündə milli ruhun oyanmasına, nəticə olaraq milli özünüdərkin hüdudsuz kimi görünən sərhədləri daxilində o ruhun yaradıcılıq potensialının genişlənməsinə verilən imkan, qüdrətli Azərbaycan qurmağa çağırış idi.

Böyük dövlət və siyasət adamı xalqın formalaşaraq yaşamasında ana dilinin gücünü başlıca aparıcı xətt kimi görür və çıxışlarında bu amili belə dəyərləndirirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Heydər Əliyev məktəbinin ən uğurlu məzunu Prezident İlham Əliyev buna görə də AMEA-nın 80 illik yubileyindəki nitqində "Azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış olur, diqqətdə saxlayır, lazımi tədbirlər görürəm", - deyərkən gərgin dövlət işləri sırasına doğma ana dilinin müşahidə etdiyi hər hansı həyəcanlı vəziyyətinə həssas və ciddi yanaşmaqla o məsələnin həllinə biganə qalmadığını vurğulayır, bunun nə qədər təxirəsalınmaz iş olduğunu müvafiq qurumların və qurumlara rəhbərlik edən insanların diqqətinə çatdırır. Bu fikirləri ilə dilimizin xalq olaraq hamımızın gələcək taleyində oynadığı həlledici amili bir daha xatırladır: "Biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhv, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir".

Milli mədəniyyətlərin və ədəbiyyatların unudulması ayrı-ayrı fərdlərin şəxsində hər bir xalq üçün intellektual fəlakətə gedən yoldur. Bu, daha çox onunla xarakterizə olunur ki, müasirimiz insanlarımız Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi və digər onlarla yazıçı-şairlərin milli irsimiz hesab olunan əsərlərindən ayrı düşür, cılız ədəbiyyat və mədəniyyət nümunələri ilə formalaşırsa, bu, ümumən xalq olaraq deqradasya yoluna çıxmağımız deməkdir. Kütləvi informasiya vasitələrimizə (fərqi yoxdur, çap və yaxud elektron) ötəri nəzər salmaq bəs edər ki, həm də "dilin keşikçiləri" yükünü çiyinlərinə götürmüş kifayət qədər çoxluğu təmsil edən şəxslər dilimizi hansı vəziyyətə aparırlar. Reallığı vaxtında müşahidə edən dövlət rəhbəri buna görədir ki, AMEA-nın 80 illik yubileyində söylədiyi nitqində mənzərənin gələcək üçün ürəkaçan heç nə vəd etmədiyini müvafiq qurumların və səlahiyyətli şəxslərin, ümumilikdə xalqımızın diqqətinə çatdırırdı: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm".

Bu fikir və tövsiyələr dilimizin saflığını qorumalı, onu gözləyən təhlükələrin qarşısında sipər olmalı hər bir təşkilat və ayrı-ayrı səlahiyyətli şəxslər üçün gələcək fəaliyyət proqramına çevrilməlidir.

**Mahirə HÜSEYNOVA,**
*ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, Filologiya elmləri doktoru, professor*

# Firudin Qurbanov Lənkəranda səfərdə olub






## Nazir müavininin səfəri çərçivəsində bir sıra görüşlər keçirilib, təhsil müəssisələrinə baxış olub və vətəndaş qəbulu təşkil edilib





Noyabrın 21-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Lənkəran rayonuna səfər edib. Səfər çərçivəsində bir sıra görüşlər keçirilib, təhsil müəssisələrinə baxış olub və vətəndaş qəbulu təşkil edilib.

Səfərin əvvəlində nazir müavini Firudin Qurbanov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ilə birlikdə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub.

Sonra Firudin Qurbanov Lənkəran şəhəri 7 nömrəli körpələr evi-uşaq bağçasında olub, məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti, yaradılmış şərait və uşaqların inkişafı üçün formalaşdırılmış imkanlarla maraqlanıb.

Nazir müavini Lənkəran şəhəri V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin vəziyyəti ilə tanış olub. Pedaqoji kollektiv və şagirdlərlə görüşüb. İdman zalı, kitabxana, bufet və sinif otaqlarına baxış keçirib. Nazir müavini tədris prosesi ilə tanış olub, dərsləri izləyib və müəllim-şagird heyəti ilə səmimi söhbətlər aparıb.

Bölgədə fəaliyyət göstərən təhsil müəssisələrinin pedaqoji heyəti ilə keçirilən görüş zamanı tədrisin keyfiyyətinin artırılması istiqamətində fikir mübadiləsi aparılıb, müəllimlərin təklif və rəyləri dinlənilib. Müzakirələrdə müəllim fəaliyyətində məsuliyyətin artırılması, laqeydliyin qarşısının alınması və təşəbbüskarlığın stimullaşdırılması kimi məsələlər diqqət mərkəzində olub.

Nazir müavini bildirib ki, müasir dövrdə müəllimin rolu dəyişir. Müəllim şagirdlərə kömək etməli, istiqamət verməli və onların marağını cəlb etməlidir.

Daha sonra Firudin Qurbanov Lənkəran şəhəri M.Bağırov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbində təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb. Nazir müavini çıxışına Ümummilli Lider Heydər Əliyevin müəllim peşəsinə yüksək dəyəri təcəssüm etdirən sözlərini xatırladaraq başlayıb və əlavə edib ki, müəllimlik peşəsi ali bir missiyadır, elm və texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdə müəllimlər daim öz üzərlərində çalışmalıdırlar. Noyabr ayında xüsusi əlamətdar günləri qeyd etdiyimizi bildirən Firudin Qurbanov 44 günlük Vətən Müharibəsində və antiterror əməliyyatlarında dövlət-ordu-xalqın "Dəmir yumruq" kimi birləşməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam təmin olunmasına diqqət çəkib. Nazir müavini Vətən müharibəsində 760 təhsil işçisinin düşmənə qarşı vuruşduğunu, onlardan 20 nəfərin qəhrəmancasına şəhidlik zirvəsinə ucaldığını vurğulayıb və şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Görüş çərçivəsində "Qarabağa təhsil qayıdır", "Müasir təhsil imkanları - yeni dövr və yeni perspektivlər", "Dünyəvi tendensiyalar müasir təhsildə", "Hibrid və sosial mediada təhsil", "IV texnoloji inqilab", "Təhsilin təcrübə ilə birləşdirilməsi", "Müəllimin rolunun dəyişməsi və yeni peşələr", "STEAM təhsili və festivalı", "Uşaq və şagirdlərin yaradıcılıq fəaliyyəti, sağlamlığı və təhlükəsizliyi", "Tələbələrin işlə təmin olunması" mövzularından danışılıb.

Nazir müavini işğaldan azad olunmuş ərazilərdə görülən işlər barədə məlumat verib və bildirib ki, ölkəmizin qarşısında duran prioritet məsələ XXI əsrin tələblərinə cavab verən bilik və bacarıqlara malik, hərtərəfli dünyagörüşünə, öz ailəsinə, cəmiyyətə, dövlətə, ailədə və ölkəmizdə qəbul edilən mənəvi-əxlaqi dəyərlərə hörmət edən, Vətənin dinc quruculuğu və müdafiəsinə hazır olan yeni nəslin formalaşdırılmasıdır.

Görüş zamanı Firudin Qurbanov Lənkəran şəhər Hirkan qəsəbə tam orta ümumtəhsil məktəbinin SAF 2025 festivalında qalib olan şagirdlərini təbrik edib.

Nazir müavini bildirib ki, müasir dünyada bilik və bacarıqlar əldə etmək həyati zərurətdir. Yalnız bilikli, yaradıcı və sağlam mənəviyyatlı gənclər ölkəmizin əsas gücü olacaq.

Səfərin sonunda Firudin Qurbanov vətəndaşların qəbulunu keçirib. Qəbula gələn vətəndaşların müraciətləri əsasən məşğulluq və digər məsələlərlə bağlı olub. Nazir müavini hər bir müraciətin operativ araşdırılması və qanunvericiliyə uyğun həll olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

# "Azərbaycan Bacarıqlar Akseleratoru" layihəsinə start verilib






İqtisadiyyat Nazirliyi və Dünya İqtisadi Forumunun (DİF) Bacarıqlar Akseleratoru Şəbəkəsi (Skills Accelerator Network) arasında tərəfdaşlıq çərçivəsində ölkəmizdə bacarıqların yenilənməsinə yönəlmiş "Azərbaycan Bacarıqlar Akseleratoru" layihəsinə start verilib.

Bununla bağlı İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) təşkilatçılığı ilə "Dəyişən əmək bazarı: insan kapitalı və gələcəyin bacarıqları" mövzusunda tədbir keçirilib.

Tədbir çərçivəsində "Azərbaycan Bacarıqlar Akseleratoru" layihəsinin həmsədrlərinin iştirakı ilə "Azərbaycanda prioritet sahələr üzrə bacarıqların inkişafına dair strateji baxış" mövzusunda müzakirə sessiyası keçirilib.

DİF-in Təhsil, Bacarıqlar və Öyrənmə üzrə rəhbəri Neil Alisonun moderatorluğu ilə keçirilən sessiyada çıxış edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Azərbaycan və DİF arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu, ölkəmizin Forumun bir sıra təşəbbüslərində fəal iştirak etdiyini vurğulayıb. Çıxışda sürətlə dəyişən qlobal iqtisadi mühitdə əmək bazarının tələblərinə uyğun insan kapitalının formalaşdırılmasının dayanıqlı inkişafın əsas şərtlərindən olduğu qeyd edilib. Ölkəmizin həyata keçirdiyi iqtisadi diversifikasiya siyasətinin innovativ və yeni bacarıqlara malik kadr potensialına tələbatı daha da artırdığı diqqətə çatdırılıb. "Azərbaycan Bacarıqlar Akseleratoru" layihəsinin əmək bazarındakı mövcud boşluqların aradan qaldırılması, gənclərin peşə hazırlığının gücləndirilməsi və işçi qüvvəsinin gələcəyin ixtisaslarına uyğunlaşdırılması baxımından xüsusi əhəmiyyət daşıdığı bildirilib. Özəl sektor, təhsil müəssisələri və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq əsasında həyata keçiriləcək layihənin əmək bazarında tələb-təklif balansının daha effektiv şəkildə formalaşmasına xidmət edəcəyi nəzərə çatdırılıb.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə DİF-in Bacarıqlar Akseleratoru Şəbəkəsi ilə tərəfdaşlıq çərçivəsində ölkəmizdə "Azərbaycan Bacarıqlar Akseleratoru"nun yaradılmasını ölkədə bacarıqların yenilənməsi və artırılması prosesinə töhfə verən addım kimi dəyərləndirib. Hər il ölkəmizdə təhsil infrastrukturunun yenilənməsi istiqamətində görülən işlər, gənclərin təhsilinə dəstək məqsədilə həyata keçirilən layihələr barədə məlumat verib.

SOCAR-ın prezidenti Rövşən Nəcəf dövlət, sənaye və təhsil tərəfdaşlığı ilə insan kapitalına yönəlik birgə investisiyaların ölkəmizin uzunmüddətli iqtisadi dayanıqlığının əsas təminatçısı olduğunu bildirib. Ömürboyu təhsil yanaşması və "Azərbaycan Bacarıqlar Akseleratoru" kimi təşəbbüslərin bacarıq boşluqlarının aradan qaldırılması və ölkənin texnologiyayönümlü inkişafı baxımından əhəmiyyət kəsb etdiyi qeyd edilib.

"PASHA Holding"in baş icraçı direktoru Cəlal Qasımov vurğulayıb ki, iqtisadiyyatın rəqabətqabiliyyətini müəyyən edən əsas amillərdən biri sürətlə inkişaf edən rəqəmsal savadlı işçi qüvvəsinin formalaşdırılmasıdır. Xüsusilə, fintek, data analitikası, süni intellekt, kibertəhlükəsizlik və innovasiya sahələrinə dair peşəkar bacarıqlara tələbat sürətlə artır.

Daha sonra Azərbaycan üçün növbəti illərdə prioritet bacarıq istiqamətləri müzakirə olunub.

Tədbirdə çıxış edən DİF-in Təhsil, Bacarıqlar və Öyrənmə üzrə rəhbəri Neil Alison "Azərbaycan Bacarıqlar Akseleratoru" proqramının başlamasını və Azərbaycanın Dünya İqtisadi Forumunun Qlobal Akseleratorlar Şəbəkəsinə qoşulmasını iqtisadiyyatın diversifikasiyası istiqamətində atılmış mühüm addım kimi dəyərləndirib. Bildirilib ki, təhsilin sənayenin tələbləri ilə uzlaşdırılması, rəqəmsal və yaşıl bacarıqların inkişafı, eləcə də ömürboyu təhsil konsepsiyasının dəstəklənməsi "Bacarıqlar Akseleratoru"nun əsas hədəflərindəndir. Bu yanaşma insan kapitalını gücləndirir və işçi qüvvəsinin gələcəyin iqtisadiyyatının təqdim etdiyi imkanlardan daha səmərəli yararlanmasını təmin edir.

Neil Alison tədbir çərçivəsində "Gələcəyin peşələri 2025" ("Future of Jobs 2025") hesabatının nəticələrini təqdim edərək qlobal bacarıq trendlərinin Azərbaycan üçün mümkün təsirlərini şərh edib. Tədbir iştirakçıları arasında ölkə üzrə əsas bacarıq prioritetlərinə dair sorğu keçirilib.

4SİM-in icraçı direktoru Fariz Cəfərov "4Sİ dövründə bacarıqlar və yerli çağırışlar" mövzusunda təqdimatla çıxış edib. "Azərbaycan Bacarıqlar Akseleratoru" layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, "Bacarıqlar Akseleratoru" (Skills Accelerator) — DİF-in Yeni İqtisadiyyat və Cəmiyyət Mərkəzi tərəfindən həyata keçirilən qlobal dövlət-özəl əməkdaşlıq platformasıdır. DİF-in Azərbaycanın qoşulduğu Qlobal Bacarıqlar Akseleratorlar Şəbəkəsi hazırda 35 ölkədə fəaliyyət göstərərək müxtəlif sektorlar arasında əməkdaşlığı təşviq edərək əmək bazarının tələblərinə uyğun bacarıqlar formalaşdırır, innovativ həllərdən istifadənin miqyasını genişləndirir.

Təşəbbüsün icrası 4SİM tərəfindən koordinasiya olunacaq. Layihənin Azərbaycan üzrə həmsədrləri iqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev, SOCAR-ın prezidenti Rövşən Nəcəf və "PASHA Holding"in baş icraçı direktoru Cəlal Qasımovdur.

Sonda 4SİM-in Elm və Təhsil Nazirliyinin Təhsilin İnkişafı Fondu ilə birgə icra etdiyi "4Sİ Akademiyası — Milli Proqram" çərçivəsində "Coursera" onlayn təhsil platformasında təlimlərə qoşularaq fəallıq nümayiş etdirən iştirakçılara həmsədrlər tərəfindən sertifikatlar təqdim olunub.

# Təhsil sahəsində əməkdaşlıq genişlənir



## Nazir müavini Cənubi Afrika Respublikasının ali təhsil və təlim nazirinin müavini ilə görüşüb

Noyabrın 18-də elm və təhsil nazirinin müavini Həsən Həsənli ölkəmizdə səfərdə olan Cənubi Afrika Respublikasının ali təhsil və təlim nazirinin müavini Nomusa Dube-Ncube ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

# Ümumi təhsilin milli ideyası

## tələbyönlü və ləyaqətli vətəndaş tərbiyəsi...

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi uzaqgörənlik nümunəsi olan müdrik fikridir ki, "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır". Bu konseptual müddəanı rəhbər tutaraq, həmin Sərəncamda qeyd edildiyi kimi, "... kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".

Bu qürurverici hadisədən ötən bütöv bir qərinə dönəmində ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi fəaliyyət sahələrində müstəsna inkişafa nail olunması birmənalı qəbul edilir. Ölkəmizin ərazi bütövlüyü və suverenliyini, uzun müddət yurd həsrəti ilə yaşamış vətəndaşlarımızın da konstitusion hüquqlarının tam bərpası, şübhəsiz, nailiyyətlərimizin zirvəsidir, möhtəşəm tarixi zəfər salnaməsinin parlaq səhifəsidir. Millətimizin qürur və iftixar mənbəyinə çevrilmiş bu əzəmətli qələbənin memarı, təbii ki, Müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti, onu döyüş meydanlarında reallaşdıranlar isə şanlı ordumuz, Azərbaycan məktəblərinin və müəllimlərinin tərbiyə etdiyi qəlbi Vətən eşqi ilə döyünən əsgər və zabitlər olmuşdur. Lakin bu misilsiz qələbədən nə qədər ruhlanıb nikbinləşsək də, indiki nəsli əvəz edəcək gələcək nəsillərin xalqımızın milli-mənəvi, əxlaqi keyfiyyətlərini yaşadan dəyərlər ruhunda tərbiyəsi bu gün hər zaman olduğundan daha artıq dərəcədə taleyüklü problem kimi ön plana çəkilməlidir.



Dövlət müstəqilliyini bərpa etmiş ölkəmizin bugünkü ümumi təhsil sistemi xalqımızın mütərəqqi maarifçilik ənənələri və müasir dövrün qabaqcıl təhsil ideyaları əsasında formalaşmış və inkişaf etməkdədir. Təsadüfi deyil ki, ölkəmizin "Təhsil haqqında" Qanununda fərdin müasir bilik, bacarıq və səriştələrə yiyələnməsi, cəmiyyətdə rəqabətədavamlı və tələbatyönlü olması ilə yanaşı, onun milli-mənəvi dəyərlərə, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq ləyaqətli vətəndaş və şəxsiyyət olaraq yetişdirilməsi tələbi konseptual hüquqi əsas və prioritet istiqamət olaraq təhsilin ən ümdə vəzifələri sırasına daxil edilmişdir. Buna görə də ümumi təhsillə bağlı bütün təşkilati-normativ səciyyə daşıyan sənədlərin, dövlət təhsil standartlarının, dərslik və dərs vəsaitlərinin, metodik tövsiyələrin, təlim texnologiyalarının, pedaqoji-metodik fəaliyyətlərin məzmun və mahiyyətində "tərbiyəolunma", tərbiyəedicilik" komponentlərinin xüsusi çəkisinin artırılması və gücləndirilməsi daim əlahiddə diqqət tələb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 fevral 2024-cü ildə keçirilmiş andiçmə mərasimindəki nitqində mənəvi-əxlaqi məsələlərlə bağlı irəli sürdüyü müddəalar, əslində, sosial-humanitar və digər mərkəzi icra hakimiyyəti orqanları tərəfindən bu sahədə həyata keçiriləsi fəaliyyətlərin əsasını təşkil edir: "Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun... Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır... Ona görə gənclərimizin tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur".

Tarixə nəzər salsaq, hələ orta əsrlərdən etibarən müqəddəs "Quran"dan qaynaqlanan ideyalar üzərində qurulmuş müsəlman Şərqinə məxsus həyat fəlsəfəsində mənəvi tərbiyə, əxlaqi dəyərlər cəmiyyətin təşəkkülündə, insanların, xüsusilə də gənclərin milli, vətənpərvər ruhda formalaşmasında öncül mövqeyə malik olmuşdur. Təsadüfi deyil ki, "Orta əsr Şərq təsəvvürlərinə görə, tərbiyəsiz bilik - odunsuz ocaq, biliksiz tərbiyə - bədənsiz ruh kimidir" (F.Rüstəmov, Pedaqogika tarixi, Bakı, "Elm və təhsil", 2010, səh. 136) anlamında qəbul edilmişdir. Məşhur türk alimi və mütəfəkkiri Əbdülfəttah Şahinin də bir ibrətamiz fikrini xatırlatmaq yerinə düşər: "Məktəblərdə ən azı digər dərslər qədər tərbiyə və millilik üzərində dayanılmalıdır ki, Vətəni cənnətə çevirə biləcək sağlam ruh və sağlam xarakterli nəsillər yetişə bilsin". Çünki "Hər işin ibtidası tərbiyədir" (Mirzə Ələkbər Sabir - dahi Azərbaycan şairi), "Bütün millətin rifah halı uşaqların tərbiyəsindən asılıdır" (Con Lokk - ingilis filosofu və pedaqoqu).

Heç şübhəsiz, əsrlər bir-birini əvəz etsə də, dünyanın ictimai-siyasi, ideoloji mənzərəsi dəyişikliklərə məruz qalsa da, xalqımızın milli adət-ənənələrə, mənəvi-əxlaqi dəyərlərə bağlılığı dəyişməz qalmaqdadır. Nahaq yerə deməyiblər ki, "Bütün insani dəyərlərin təməli əxlaqdır" (Albert Eynşteyn - dahi alim, filosof). Bununla belə, həyati məsələlərə müxtəlif mövqelərdən yanaşmaların yarandığı, qloballaşma proseslərinin təsir dairəsinin getdikcə daha sürətlə genişləndiyi indiki dövrdə milli dünyagörüşümüzlə və əxlaqi münasibətlərimizlə bir araya sığmayan meyillər istər-istəməz cəmiyyətimizə yol tapır ki, bunlar da daha çox nisbətən iradəcə zəif, sadəlövh uşaq və yeniyetmələrin, gənclərin psixologiyasına, mənəviyyatına təsirsiz ötüşmür. Xüsusilə son vaxtlar bəzi yeniyetmə və gənclərdə müşahidə olunan laqeydlik, hörmətsizlik, mərhəmətsizlik, hətta amansızlıq və intihar halları ciddi narahatlıq doğurmaqdadır. Qəribədir ki, bu cür hallar baş verdikdə "günahkar" axtarışına, "qınaq obyektləri" tapılmasına başlanılır. Halbuki rast gəlinən bu və ya digər belə faktlara qarşı "birdəfəlik tədbir" görüb təsirsiz nəsihətlərlə kifayətlənmək əvəzinə problemə kompleks yanaşmaq, fəsadların törəmə səbəblərini real prizmadan təhlil edərək onları obyektiv qiymətləndirib aradan qaldırılması yolları haqda düşünülməlidir.

Kütləvilikdən uzaq olsa da, cəmiyyətimizdə mövcud olan bir sıra ikrah doğuran hadisələr, o cümlədən, davamlı ailə münaqişələri, valideynlərdən hər hansı birinin ailədən uzaqlaşması nəticəsində övladlarının himayəsiz və maddi çətinliklər içərisində qalması, uğursuz nikahlar, həmçinin aldadıcı xarakter daşıyan qeyri-rəsmi vətəndaş nikahları, valideynlərin uşaqlarını zorla təhsildən uzaqlaşdırıb kənar işlərə cəlb etmələri və bununla da bəzilərinin, xüsusilə də qızların nəinki tam orta, hətta ümumi orta təhsil ala bilməməsi, səbatsız valideynlərin övladlarının müəyyən peşəyə, sənətə yiyələnməsi barədə düşünməməsi, qız uşaqlarının məcburən ərə verilməsi, reytinq xatirinə bəzi telekanalların uğursuz insan münasibətlərini, eləcə də əxlaqi dəyərlərdən uzaq hərəkətləri şou xislətli verilişləri vasitəsi ilə ictimailəşdirmələri və digər bu kimi faktlar cəmiyyət həyatında mənəvi-psixoloji, pedaqoji iqlimə, uşaq və yeniyetmələrin mənəvi durumuna müstəsna dərəcədə mənfi təsir göstərən amillərdir.

Fikrimizcə, müşahidə olunan həmin problemli məsələlər ətrafında təhsil, mədəniyyət, səhiyyə, hüquq sistemləri və KİV-in nümayəndələrinin, din xadimlərinin, həmçinin digər maraqlı tərəflərin iştirakı ilə işgüzar müzakirələrin keçirilməsi, konstruktiv təkliflər əsasında perspektiv fəaliyyətləri hədəfləyən mükəmməl bir sənədin qəbul olunması, burada irəli sürülən müddəalarla bağlı təhsil, ailə, mədəniyyət, səhiyyə və hüquq sahələri üzrə qanunvericilik aktlarında zəruri dəyişikliklərin edilməsi məqsədəuyğun sayılardı.

Bununla əlaqədar ümumi təhsilə yönələn məsələləri diqqətə çatdırarkən, ilk növbədə, hesab edirik ki, indi qüvvədə olan "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi" 14 il bundan əvvəl qəbul edildiyindən hazırda ölkəmizin ümumi təhsil müəssisələrinin fəaliyyətinin dövlətin çağdaş dövrdəki təhsil siyasəti əsasında tənzimlənməsinə, yerli təhsili idarəetmə orqanlarının, məktəb rəhbərlərinin, pedaqoji işçilərin, valideynlərin və təhsil prosesinin digər aidiyyəti iştirakçılarının hüquq və vəzifələrinin müasir çağırışlar, xüsusilə də uşaq və yeniyetmələrin azərbaycançılıq ideologiyası, milli ruh, milli əxlaq, şəxsiyyətyönlü dəyərlər əsasında tərbiyə edilməsinin prioritetliyi nəzərə alınmaqla dəqiqləşdirilməsinə xidmət edən, eləcə də təhsilalanların təhsil prosesinin bərabərhüquqlu iştirakçısı olmalarını, təlim-tərbiyə prosesinin keyfiyyətinin təmin edilməsində məsuliyyət daşımalarını, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə uyğun sağlam həyat tərzi keçirmələrini, nümunəvi davranışa və humanist münasibətə malik olmalarını, ölkəmizə edilən haqsızlıqlara qarşı barışmaz mövqe tutmalarını hüquqi cəhətdən əsaslandıran təkmil bir normativ sənədin ərsəyə gətirilməsi zərurəti yaranmışdır. "Təhsil haqqında" Qanuna görə, ümumi təhsil müəssisələri sırasına daxil edilmiş ibtidai, ümumi orta, tam orta ümumtəhsil məktəbləri; istedadlı uşaqlar üçün ümumtəhsil məktəbləri; ümumtəhsil internat məktəbləri; lisey və gimnaziyalar öz təyinatı və fərqli xüsusiyyətləri ayrıca əhatə olunmaqla yeni direktiv xarakterli bu sənədin "Ümumi təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi" adlandırılması daha məntiqli olardı. Düşünmək olar ki, həmin qanunvericilik aktının təsdiqi həm də belə bir müddəanın pedaqoji aləmdə qəbuluna möhkəm zəmin yaradar ki, təhsil müəssisəsinin, pedaqoji işçilərin fəaliyyətinə verilən qiymətin xüsusi çəkisi, hər şeydən əvvəl, şagirdlərin mənəvi-psixoloji, fizioloji cəhətdən sağlam və dayanıqlı, milli dəyərlərə sadiq, mübariz və vətənpərvər ruhlu tərbiyə olunması, onlarda şəxsiyyətyönümlü keyfiyyətlərin formalaşdırılması istiqamətində atılan addımların nəticələri ilə ölçülür. Bu mənada, məlum həqiqətdir ki, həmin vəzifələrin həyata keçirilməsinə məsuliyyət daşıyan ümumi təhsil məktəbinin forma və məzmunca təkmilləşdirilməsi hazırkı dövrün reallığına çevrilmişdir. Ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar dövrün çağırışlarına cavab verən təkmil məktəb-təhsil modellərinin yaradılması tələbi bunu bir daha sübut edir.

Bununla belə, mövcud dönəmdə uşaq və yeniyetmələrin təlim-tərbiyəsinin təşkili kimi taleyüklü missiyanı həyata keçirə biləcək orta statistik ümumtəhsil məktəbi, fikrimizcə, aşağıdakı keyfiyyətlərə malik olmalıdır:

* məktəbdə normal və təhlükəsiz təhsil şəraiti yaradılmışdır, peşəkar səviyyədə təcrübəli rəhbər və ixtisaslar üzrə səriştəli pedaqoji kadr heyəti, ehtiyacları ödəyəcək maddi-tədris baza, İKT avadanlığı, tibb və internet xidməti mövcuddur;

* bütövlükdə pedaqoji kollektiv və texniki-yardımçı heyət vahid məqsədə xidmət edən komanda ruhunda birləşmişdir. Valideynlərlə işgüzar pedaqoji-psixoloji əlaqələr yaradılmışdır, vaxtaşırı onlarla təhsil məsələlərinə aid maarifləndirici tədbirlər aparılır.

* məktəb yeniliklərə açıqdır, faydalı pedaqoji ideyaların öyrənilib şəraitə uyğun tətbiqində maraqlıdır, təşəbbüskar və yaradıcı fəaliyyət dəstəklənir və dəyərləndirilir;

* məktəbdə qarşılıqlı hesabatlılığa, məsuliyyət bölgüsünə və fəaliyyətin monitorinqinə əsaslanan kollegial idarəetmə sistemi yaradılmışdır, ümumi təhsil sahəsi üzrə aktual məsələlərin, qarşıya qoyulmuş vəzifələrin kollektivə çatdırılmasında, təlim-tərbiyə işlərinin məqsədyönlü planlaşdırılması, təşkili və keyfiyyətli həyata keçirilməsi baxımından mövcud vəziyyətin təhlil olunub qiymətləndirilməsi və zəruri təkliflərin hazırlanmasında ali idarəetmə orqanı kimi Pedaqoji Şuranın imkanlarından səmərəli istifadə edilir;

* bütövlükdə təhsil prosesinin - müəllimlərin fəaliyyətinin, ibtidai, ümumi orta, tam orta təhsil səviyyələrində fənlərin tədrisi vəziyyətinin, şagirdlərin fərdi xüsusiyyətlərinin öyrənilib obyektiv qiymətləndirilməsi sayəsində alınan nəticələr keyfiyyətin idarəolunmasında əsas indikatorlar kimi nəzərə alınır və bunlara uyğun perspektiv fəaliyyət istiqamətləri müəyyənləşdirilir;

* məktəb psixoloqu, sinif rəhbərləri, müəllimlər arasında işgüzar əlaqə mövcuddur, birgə fəaliyyət qaydasında şagirdlərlə psixoloji müşahidələr, diaqnostik qiymətləndirmələr aparılır, meyil və maraqlarının diferensiasiyası həyata keçirilir, məktəbdaxili olimpiadalar, müsabiqələr, müzakirələr təşkil edilir, nəticələr ümumiləşdirilir, təhlil olunur və yekunları barədə valideynlərin də məlumatlandırılması təmin edilir;

* şagirdlərin müstəqil olaraq əlavə bilik və məlumatlar əldə etmək, ilkin tədqiqatçılıq meyillərini stimullaşdırmaq məqsədilə onların milli tariximizin əlamətdar hadisələri və görkəmli şəxsiyyətləri, milli-mənəvi dəyərlər, ölkəmizin flora-faunasının özəllikləri və s. mövzularda təqdimatları təşkil edilir və rəğbətləndirilir;

* "uşağın təlimdə müvəffəqiyyətsizliyə uğraması" fikri müəllimin vəzifəsi və statusu ilə bir araya sığmadığı üçün şagirdin (şagirdlərin) təkrar eyni sinifdə saxlanması pedaqoji etikaya zidd hərəkət kimi qiymətləndirilir, ibtidai siniflərdə ev tapşırığı verilməsindən imtina edilir və s.

Ümumi təhsil məktəblərində təhsil prosesinin tamlığı onun öyrədici, tərbiyəedici, inkişafetdirici xarakterdə olması ilə müəyyənləşirsə, hesab edirik ki, bu rəsmi dövlət tələbinin reallaşdırılması istiqamətlərini özündə birləşdirən konseptual səciyyəli ümumi təhsilin dövlət standartları və ona nəzərən hazırlanmış fənlər üzrə məzmun standartları ilə bağlı peşəkar səviyyəli araşdırmaların aparılmasına ehtiyac duyulur. Bu prosesdə belə suallara cavab axtarmaq lazımdır ki, müasir dövrün tendensiyaları nəzərə alınmaqla həmin standartlarda deklarativ (məlumat xarakterli), prosedural (icraya dair qaydalar), kontekstual (problemin həlli yolunu əhatə edən) biliklərin faiz nisbəti necə müəyyən olunub; idraki, ünsiyyət, psixomotor bacarıqların əhatə dairəsi hansı səviyyədədir; uşaq şəxsiyyətini şərtləndirən dəyərlərin formalaşmasına məzmun standartları nə dərəcədə xidmət göstərir və bunlarda ifadə edilən zəruri biliklərin mahiyyəti dövrün tələbatı ilə mütənasibdirmi; həmçinin fənlər üçün müəyyənləşdirilmiş məzmun şagirdlərin inkişafını, maraqlarını və mənəvi ehtiyaclarını ödəmək iqtidarındadırmı və s. Şübhəsiz, belə təhlillər ümumi təhsilin hər bir səviyyəsi üzrə aparılmalıdır, lakin mübaliğəsiz desək, bu prosesdə ümumi təhsilin əsas bünövrəsi sayılan, millətin genofondunun formalaşdırılmasının ilk dövrü hesab olunan ibtidai təhsil mərhələsi daha çox xüsusi diqqət və bəsirətli yanaşma tələb edir, çünki yuxarı səviyyələrdə təhsilin keyfiyyəti, uşaqların davranışı barədə hər hansı bir mülahizə yürüdülərkən, ilk növbədə, bu siniflər üzrə ibtidai təhsilin real vəziyyəti xatırlanmış olur. Həm də doğru fikirdir ki, ibtidai sinif şagirdlərinin təlim-tərbiyəsinin nəticələri onun müəlliminin pedaqoji səviyyəsindən xəbər verir. Məhz peşəkar müəllim tərəfindən təşkil edildiyi halda, uşaqların sosiallaşması və mənəvi-əxlaqi cəhətdən formalaşmasında, qayda-qanun anlayışlarının dərkində və onlara əməl etməsində, ətraf aləmə, insanlara qayğılı, humanist münasibətin yaranmasında ibtidai təhsil, bir növ, tənzimləyici və səfərbəredici rol oynayır.

Bütün bunları nəzərə alaraq, vacib fəaliyyət istiqaməti kimi ibtidai sinif müəllimlərinin elmi-nəzəri, metodik, peşəkarlıq səviyyəsinin daha təkmil forma tətbiq etməklə bir neçə mərhələdə araşdırılması, onların tərkibinin ciddi təhlil olunması, pedaqoji ali məktəblərdə ibtidai sinif müəllimi hazırlığı üzrə kurikulumların əsaslı surətdə təkmilləşdirilməsi, eyni zamanda hər tədris ilinin sonunda ibtidai təhsili başa vurmuş şagirdlərin mütərəqqi dünya təcrübəsinə istinadən oxu, yazı, hesablama bacarıqlarına, məntiqi təfəkkür elementlərinə, tələb edilən həyati bilgilərə, bacarıq və səriştələrə hansı səviyyədə yiyələndiklərinin monitorinqinin aparılması, nəticələrin araşdırılıb müvafiq hesabatlar şəklində ictimaiyyətə təqdim edilməsi, monitorinqlərin yekunu ilə əlaqədar nöqsan və çatışmazlıqları doğuran səbəblərin (müəllimlərin qeyri-peşəkarlığı; tətbiq olunan təlim texnologiyalarının effektsizliyi; kurikulum və dərsliklərin müasir tələbləri ödəməməsi; maddi-texniki tədris bazasının zəifliyi; məktəb rəhbərliyinin nəzarətsizliyi və səriştəsizliyi; müəssisədə mənəvi-psixoloji iqlimin qeyri-qənaətbəxş olması; valideynlərin laqeyd münasibəti; məktəbdə normal təhsil şəraitinin yaradılmaması və s.) qiymətləndirilməsi və müvafiq cari və perspektiv zəruri tədbirlərin müəyyənləşdirilməsi, eləcə də ibtidai təhsilin sonunda dördillik müşahidələr əsasında müəllimin dərs dediyi hər bir şagirdinin psixoloji-fərdi xüsusiyyətləri, diqqəti, davranışı, maraq dairəsi, hansı fənn sahələrinə daha çox meyil etməsi, idraki keyfiyyətləri, tənqidi təfəkkürü, kollektivçiliyi, ədəb-ərkanı barədə lakonik xasiyyətnamə hazırlaması yuxarı siniflərdə fənn müəllimlərinin, sinif rəhbərinin, məktəb psixoloqunun (yeri gəlmişkən, pedaqoji ali məktəblərdə hər bir tələbənin uşaq psixologiyasına, uşaqlarla qarşılıqlı əməkdaşlığın psixoloji əsaslarına yiyələnməsi üçün tədris planlarında müvafiq ixtisas kursu, yaxud praktik fənlərin mövqeyinin genişlənməsi, məzunlara diplomla yanaşı, müəyyən edilmiş formada sertifikat və ya diploma əlavə kimi rəsmi sənədin verilməsi müstəsna əhəmiyyət kəsb edərdi. Çünki mövcud psixoloq ştatları ilə bugünkü tələblərin yerinə yetirilməsi, sadəcə, qeyri-mümkündür) məlumatlılığının təmin olunmasında xeyli faydalı olardı.

Tələbyönlü standartlar əsasında tərtib olunmuş hər bir dərslik də şagirdlərin bilik, bacarıq və məlumatlılıq səviyyəsinin genişlənməsinə etibarlı zəmin yaratmaqla bərabər, milli şüurun təbliği və təşviqində, milli-mənəvi duyğuların oyanışında səmərəli mənbə səviyyəsində olmalıdır. Peşəkarlıqla hazırlanmış dərslik hansı fənnə aidliyindən asılı olmayaraq, şagirdlərdə rabitəli nitq mədəniyyətinin, savadlı yazı vərdişlərinin, mücərrəd, həmçinin obrazlı təfəkkürün, elmi təsəvvür və fərziyələrin, bədii-estetik zövqün formalaşmasına heç də təsirsiz ötüşmür. Yeri gəlmişkən, dərsliklərdə müvafiq məzmun standartlarının reallaşdırılması vəziyyəti də düşündürücü məsələ kimi xüsusi araşdırma tələb edir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinə də münasibət köklü şəkildə dəyişilməsi, bu prosesə uşaq şəxsiyyətinin mənəvi cəhətdən formalaşmasında mühüm vasitə kimi baxılması məqsədəuyğundur. Məsələn, Finlandiya və Yaponiyanın ümumi təhsil məktəblərinin ibtidai siniflərində, hətta bəzi yuxarı siniflərdə rəqəmli qiymətləndirmə aparılmır. Əvəzində uşaqlara savad təlimi ilə yanaşı, məqsədyönlü qaydada ünsiyyət, qarşılıqlı hörmət, əməksevərlik, insanlara və təbiətə həssas münasibət, sadə tədqiqatçılıq, milli adət-ənənələrə, əxlaqi dəyərlərə sədaqət və məişət mədəniyyətinə aid ilkin bacarıqlar, gözəlliyi dəyərləndirmək və digər mənəvi, estetik və fiziki keyfiyyətlər aşılanır ki, bütün bunlar uşaqların sağlam milli-bəşəri ruhda tərbiyə olunmasına, cəmiyyətə inteqrasiyasına ciddi müsbət təsir göstərir. Məntiq isə çox sadədir: qiymət almaq deyil, inkişaf etmək prioritet sayılır. Belə bir dünyagörüşünün mövcudluğu uşaqlarda azad düşüncə tərzinin, sağlam tənqidi təfəkkürün formalaşması ilə nəticələnir. Gələcəkdə qiymətləndirmə, dəyərləndirmə üzrə mütərəqqi təcrübələrdən yararlanmaq faydalı olardı.

Gənc nəslin tərbiyə işinin təşkili ilə bağlı Ulu Öndər Heydər Əliyev belə bir konseptual müddəa irəli sürmüşdür ki, "İslam dini bizim müqəddəs dinimizdir. İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməlidir... Gənclərimizin islam dinini mənimsəməsi üçün lazımi tədbirlər görülməlidir".

Ulu Öndərin bu hikmətli fikrini rəhbər istiqamət kimi qəbul edərək uşaq və gənclərimizin fəlsəfi-hüquqi-ideoloji mahiyyəti Vətən sevgisi, mənəvi ucalığa, düzlüyə, halallığa, humanizmə, birliyə, qəhrəmanlığa, elmə, mədəniyyətə çağırış ideyaları olan İslam dininin təlqin etdiyi bəşəri dəyərlər ruhunda tərbiyəsi mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, humanitar yönlü dərsliklərin mətnləri müəyyənləşdirilərkən onların məzmununun islami ideyalarla səsləşməsi, şifahi xalq ədəbiyyatı nümunələrinin, ədəbi əsərlərin, tarixi şəxsiyyətlərə və hadisələrə həsr edilmiş təlim materiallarının, məqamı gəldikcə, ilahi dəyərlərdən qaynaqlanan həyati həqiqətlərə istinadən izahı tədris prosesinin keyfiyyətinə, maraqlı və yaddaqalan olmasına, şagirdlərin mənəvi tərbiyəsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərərdi. Bunlarla yanaşı, sonradan meydana çıxmış elmi kəşflər haqda hələ neçə-neçə əsr əvvəl yaranmış "Quran"da müvafiq bilgilərin verilməsi də sübuta yetirilmiş faktlarla şagirdlərə çatdırılmalıdır ki, bu işin də uğurlu həlli bilavasitə müəllimlərin ümumi savad və hazırlıq səviyyəsinin keyfiyyətindən asılıdır.

Vətən tarixinin, mədəni abidələrinin, flora-faunasının öyrənilməsində xüsusi rola malik ekskursiyaların sistemli təşkili üçün tədris planlarında müvafiq saat nəzərdə tutulması, respublikamızın şəhər və rayonlarının özəllikləri barədə zəruri məlumatların "Azərbaycan tarixi"nə əlavə kimi toplu şəkində nəşr edilməsi, eləcə də Azərbaycan tarixində baş vermiş ən mühüm hadisələri, görkəmli şəxsiyyətləri (dövlət xadimləri, alimlər, incəsənət xadimləri, sərkərdələr, müharibə qəhrəmanları) əks etdirilən bukletlərin hazırlanması, imkan daxilində uşaqların yaşlarına uyğun məzmunda olan teatr tamaşalarına aparılması və onlar üçün səyyar tamaşaların təşkili, məktəblərə dövlət vəsaiti hesabına maliyyələşdirilən elmi-texniki, ədəbi-bədii, idman və ekoloji istiqamətli dərnək ştatlarının ayrılması, idman bölmələrinin yaradılması, habelə mütaliə səriştəliliyinin mədəni dəyərə çevrilməsi ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi şagirdlərdə elmi dünyagörüşünün, tənqidi təfəkkürün formalaşmasında, milli qürur, milli təəssübkeşlik və vətənpərvərlik hisslərinin güclənməsində, mənəvi-estetik dəyərlər ruhunda tərbiyə olunmalarında, onlarda şəxsiyyəti təyin edən cəhətlərin inkişafında müstəsna əhəmiyyətə malik tədbirlər kimi nəzərə alınmalıdır.

Uşaqların tərbiyəolunma sistemindən danışarkən bir məqama da diqqət yetirməliyik. Təhsil prosesində tərbiyəvi dəyərlərin aşılanması üzrə işlər aparılsa da, uşaq və yeniyetmələr bir sıra hallarda ətrafda, əhatə olunduqları mühitdə onlara təlqin edilənlərin əksi ilə rastlaşırlar. Əksər telekanallarda bayağı, milli ənənələrlə bir araya sığmayan verilişlərin nümayişi həqiqətən, ikrah doğurmaqla uşaqların daxili aləminə, psixologiyasına olduqca mənfi təsir göstərir. Düşünürük ki, uşaq və gənclərin tərbiyəsində milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin roluna, təhsil tariximizə, təhsilimizin müasir problemlərinə, pedaqoji fikir tariximizin görkəmli nümayəndələrinə, "müəllim-valideyn", "məktəb-valideyn" münasibətlərinə, inkişafyönlü təhsil layihələrinə və digər bu kimi vacib məsələlərə həsr edilən verilişlərə geniş yer verilməsi daha məqsədəmüvafiq olardı.

Statistik rəqəmlərə görə, ailə münaqişələri nəticəsində xüsusilə son vaxtlar boşanmaların sayının xeyli artması da ciddi narahatlıq doğurmaya bilməz. Bəlkə də ailə dəyərlərinin təbliği və təşviqi ilə bağlı sistemli maarifləndirmə işləri elə məktəbdən başlanmalıdır?! Vaxtilə məktəblərimizdə "Ailə həyatının etika və psixologiyası" fənni, bəzi qeyri-dövlət məktəblərində "Mənəviyyat" adlı fənn tədris olunurdu. Düşünürük ki, müasir standartlar əsasında bu fənlərin məzmununun hazırlanması və onların müstəqil fənn kimi tədrisi ilə bağlı maraqlı tərəflərin iştirakı ilə müzakirələrin təşkili məqsədəmüvafiq hesab edilə bilər.

**Aydın ƏHMƏDOV,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*

**P.S.** Təhsildən, onun ayrılmaz hissəsi olan tərbiyə amilindən, əxlaqi dəyərlərdən danışarkən Ulu Öndər Heydər Əliyevin konseptual səciyyəli hikmətli fikirlərinə istinad etməmək, sadəcə, qeyri-mümkünür, ona görə ki, təhsil quruculuğu, təhsilin məqsəd və vəzifələri barədə Ulu Öndərin irəli sürdüyü müddəalar müstəqil Azərbaycan təhsilinin müasir tələblər, mütərəqqi dünya təcrübəsi əsasında təşəkkül tapmasında işıqlı yola, əsaslandırılmış dövlət siyasətinə çevrilmişdir. Təhsilimizin bugünkü və gələcək inkişaf yolunda mayak rolunu oynayan həmin təşkiledici və istiqamətverici fikirləri bir daha diqqətə çatdırmaq, onların mahiyyəti haqda dönə-dönə dərindən düşünmək yerinə düşərdi: "Təhsilimizin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır... Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır, uşağı, gənci müstəqil həyata hazırlayan bir səviyyədir... İnsanın şüurlu həyatı, onun gələcəyi, cəmiyyətdə özünə yer tutması məktəbdən başlanır. Məktəbdə insan dünyagörüşünün bünövrəsi qoyulur, onun xarakteri formalaşır, ideya dayaqlarının, mənəvi və əxlaqi dayaqlarının təməli yaradılır. Məktəbin təsiri altında əqidəliliyi, əməyə məhəbbət, yüksək mənəviyyat və humanizm, vətənpərvərlik və beynəlmiləlçilik kimi zəruri keyfiyyətləri tərbiyə edilir. Məktəbdə insanın baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi meyarlar bir çox cəhətdən müəyyənləşir. Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, özünü, ailəsini yaşadacaqdır... Ən vacibi, cəmiyyətimizin şüurlu üzvü olacaqdır".

Təhsilimizin məhək daşına çevrilən proqram ruhlu bu ideyalarla bağlı, zənnimizcə, əlavə şərhə ehtiyac yoxdur.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Lənkəran Dövlət Universiteti

vakant yerlər üzrə aşağıdakı qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə

ELAN EDİR:

*1. “Riyaziyat və informatika” kafedrası üzrə:*
Dosent - 1.0 ştat - 1 yer (riyaziyyat üzrə),
Dosent - 0.5 ştat - 1 yer (riyaziyyat üzrə).

*2. “Fizika, kimya və biologiya” kafedrası üzrə:*
Kafedra müdiri - 1.0 ştat - 1 yer,
Dosent - 1.0 ştat - 2 yer (kimya üzrə),
Dosent - 1.0 ştat - 1 yer (fizika üzrə).

*3. “Tarix və onun tədrisi metodikası” kafedrası üzrə:*
Baş müəllim - 1.0 ştat - 1 yer (tarix üzrə).

*4. “Pedaqogika, psixologiya və incəsənət” kafedrası üzrə:*
Dosent - 0.5 ştat - 1 yer (multikulturalizm fənni üzrə),
Baş müəllim - 1.0 ştat - 1 yer (psixologiya üzrə),
Baş müəllim - 1.0 ştat - 1 yer (pedaqogika üzrə),
Baş müəllim - 0.5 ştat - 1 yer (təsviri incəsənət üzrə).

*5. “Maliyyə idarəetməsi və audit” kafedrası üzrə:*
Baş müəllim - 1.0 ştat - 1 yer (maliyyə və mühasibat üzrə),
Baş müəllim - 0.5 ştat - 1 yer (maliyyə və mühasibat üzrə).

*6. “İqtisadiyyat və innovativ idarəetmə” kafedrası üzrə:*
Kafedra müdiri - 1.0 ştat - 1 yer,
Baş müəllim - 1.0 ştat - 1 yer (iqtisadiyyat üzrə).

*7. “Texnologiya və texniki elmlər” kafedrası üzrə:*
Dosent - 1.0 ştat - 1 yer (İKT üzrə),
Müəllim - 1.0 ştat - 1 yer (İKT üzrə).

*8. “Aqrar elmlər” kafedrası üzrə:*
Baş müəllim - 0.5 ştat - 3 yer (aqrar elmlər üzrə),
Müəllim - 1.0 ştat - 1 yer (aqrar elmlər üzrə).

*9. “Baytarlıq” fakültəsi üzrə:*
Dekan - 1.0 ştat - 1 yer.

*10. “Baytarlıq və zoomühəndislik elmlər” kafedrası üzrə:*
Dosent - 1.0 ştat - 1 yer (baytarlıq üzrə),
Baş müəllim - 0.5 ştat - 1 yer (baytarlıq üzrə),
Baş müəllim - 0.5 ştat - 1 yer (zoomühəndislik üzrə).

**Qeyd:** Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Ünvan:** Lənkəran şəhəri, H.Aslanov xiyabanı-50.
**www.lsu.edu.az,**
**E-mail:** office@lsu.edu.az
**Telefon:** (02525) 5-25-88, (daxili-105).

**REKTORLUQ**

# Minifutbol turnirinə yekun vurulub

## Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandası turnirin qalibi olub

Noyabrın 14-də Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə peşə təhsili müəssisələrinin tələbələri arasında keçirilən minifutbol idman növü üzrə turnirə yekun vurulub.

8 Noyabr — Zəfər Gününün 5-ci ildönümünə həsr olunan turnirdə peşə təhsili müəssisələrindən iki yüz nəfərə yaxın tələbə iştirak edib.

Yarışda Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandası Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandasına qalib gələrək III yerə layiq görülüb. Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandası Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandasını məğlub edərək turnirin qalibi olub.

Oyunlardan sonra qaliblərin mükafatlandırılma mərasimi keçirilib. I, II və III yerlərin qaliblərinə medal və hədiyyələr, çempion komandaya kubok təqdim olunub. Turnirdə oyunların idarə olunmasında səmərəli fəaliyyətinə görə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının Hakimlər Komitəsinə “Təşəkkürnamə”, oyunlarda fərqlənən futbolçulara “Ən yaxşı oyunçu” və “Ən yaxşı qapıçı” nominasiyaları üzrə diplomlar təqdim edilib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin və Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəsmi şəxsləri iştirak ediblər.

Qeyd edək ki, turnirin keçirilməsində məqsəd tələbələr arasında dostluq və komanda ruhunu gücləndirmək, minifutbol idman növünə olan marağı artırmaq, 44 günlük Vətən müharibəsində qazanılmış qələbənin əhəmiyyətini gənclərə çatdırmaq və onlarda vətənpərvərlik ruhunu möhkəmləndirmək olub.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 36150 **Sifariş:** 2383

**Məsul növbətçi:** S.Kərimova



# Etibarsız sayılır

**Bakı şəhər** 101 nömrəli orta ümumtəhsil məktəbi (indiki Bakı şəhər 101 nömrəli tam orta ümumtəhsil məktəb) 1997-ci ildə bitirmiş Mövsümova Nurəngiz Xalidşah qızına verilmiş A-132968 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollec** tərəfindən 2017-ci ildə Əbilov Natiq Malik oğluna verilmiş AA-089188 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Xındırıstan kənd tam orta məktəbin VIII sinfini 1993-cü ildə bitirmiş Əliyeva Kəmalə Baxşeyiş qızına verilmiş 014124 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Vladimirovka kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Zəkiyeva Təhminə Fərhad qızına verilmiş A-067965 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2008-ci ildə Məhərrəmov Tural Elşən oğluna verilmiş B-127183 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 13 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Məmmədzadə Rəsul Rəcəb oğluna verilmiş E-326956 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Pensər kənd 2 nömrəli məktəb-liseyi 2009-cu ildə bitirmiş Ağayev Qoşqar Meybulla oğluna verilmiş B-641133 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 8 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əhmədova (İsayeva) Rasimə İlqar qızına verilmiş E-511636 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 17 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Mehdiyev Əli Mərkəz oğluna verilmiş A-238369 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 1999-cu ildə Gəncəliyeva Aybəniz Şakir qızına verilmiş A-031064 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Balaşov Vüqar Daşqın oğluna verilmiş A-096152 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Aşağı Yaycı kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Səfərova (Bağırova) Aysun Bahadur qızına verilmiş A-317776 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kollec** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2008-ci ildə Musayeva (Xəlilova) Sifahi Rüstəm qızına verilmiş BB-II-073739 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Digah qəsəbə tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Babayev Şahmurad Bəymurad oğluna verilmiş E-430463 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Bağırov Əli Qubad oğluna verilmiş A-516343 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Novxanı kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Cavadova (Süleymanova) Mərcan İmamverdi qızına verilmiş B-466932 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Ə.Ağayev adına 3 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əkbərova (Sadıqzadə) Gülsüm Qabil qızına verilmiş A-437616 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Quluzadə Əli Ramiz oğluna verilmiş E-460557 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 41 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Rzayeva Yaqut Tapdıq qızına verilmiş 115038 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Abıyev Mövlan Həsrət oğluna verilmiş C-630924 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Kərimova (Əliyeva) Fərqiyyə Aydın qızına verilmiş 272298 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Cəfərxanlı kənd ümumi orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Nərçəyeva Sevil Kamal qızına verilmiş 156546 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** Humanitar və texniki təmayüllü liseyi 2022-ci ildə bitirmiş Qəhrəmanov Nihad İsa oğluna verilmiş E-535765 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** Humanitar və texniki təmayüllü liseyi 2022-ci ildə bitirmiş Qurbanov Bəylər Şahlar oğluna verilmiş E-515229 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 234 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədova Nigar Rövşən qızına verilmiş A-301590 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** N.Tusi adına təbiət və texniki təmayüllü məktəb-liseyin IX sinfini 2013-cü ildə bitirmiş Əsgərova Xəyalə Cahangir qızına verilmiş A-305899 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Əlinəzərli kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Allahverdiyev Ülvü İsmayıl oğluna verilmiş C-985518 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ulaşlı-Şıxlı kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Həşimova Gülər Aqil qızına verilmiş B-618913 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2021-ci ildə İbrahimova Səbinə İmanqulu qızına verilmiş C-117211 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Topalhəsənli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Quliyeva Leyla Şahlar qızına verilmiş A-347700 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 196 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Rəhmanov Xəyal Zahid oğluna verilmiş B-001014 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 61 nömrəli orta ümumtəhsil məktəbin VIII sinfini 1987-ci ildə bitirmiş Smıkova Olqa Vladimirovnaya verilmiş A-153274 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Cil kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Ağayeva Gülnar Feyruz qızına verilmiş 1221 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Rüstəmova Çiçək Yadigar qızına verilmiş A-433129 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Axundova Aynur Söhrab qızına verilmiş C-738807 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 2 nömrəli tam orta məktəbi 1986-cı ildə bitirmiş Əsədov Çingiz Seyfəddin oğluna verilmiş AK-256375 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Peaqoji Kollec) tərəfindən 1990-cı ildə Manafova Sevinc İmran qızına verilmiş HT-I-567727 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Fəxralı kənd tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Musazadə Fatma Çapay qızına verilmiş A-046258 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Güllük kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Həsənli Cənanə Sərdar qızına verilmiş E-513538 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına liseyi** 2022-ci ildə bitirmiş Məmmədov Anar Vüqaroviçə verilmiş E-477750 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 26 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Zeynalova Aysel Natiq qızına verilmiş E-502015 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Həsənli Kamal Rəhman oğluna verilmiş E-527051 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 149 nömrəli tam orta məktəbi (Bakı şəhər 333 nömrəli tam orta məktəb) 2022-ci ildə bitirmiş Rüstəmov Ramazan Zal oğluna verilmiş E-535592 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Hüseynzadə Seyidrəbbin Rauf oğluna verilmiş E-452323 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Cəfərli Mənsur Nizami oğluna verilmiş E-453353 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2020-ci ildə Axundov Cavid Tahir oğluna verilmiş C-067195 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2022-ci ildə Axundov Cavid Tahir oğluna verilmiş AM-046629 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Məmmədli Tərlan Xudaverdi oğluna verilmiş C-940574 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Əmirova Səbinə Həsənağa qızına verilmiş E-121914 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Səmədov Səmid Ağasəlim oğluna verilmiş C-082842 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.